RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 17 (8333) ÇƏRŞƏNBƏ AXŞAMI, 28 yanvar 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İlham Əliyevin islahatları Davosda yüksək qiymətləndirildi

## 50-ci dəfə keçirilən Dünya İqtisadi Forumu Azərbaycan üçün uğurlu oldu

Yanvarın 21-24-də İsveçrənin Davos şəhərində 50-ci Dünya İqtisadi Forumu keçirildi. Bu dəfə "Birgə və davamlı dünyanın maraqlı tərəfləri" mövzusunda keçirilən foruma 117 ölkədən 2 mindən çox siyasətçi, akademik, iş adamı və qeyri-hökumət təşkilatlarının nümayəndələri qatılmışdı. O cümlədən 50-dən çox ölkə prezident və baş nazir səviyyəsində bu ənənəvi tədbirdə təmsil olundu.

### Davosda Azərbaycana maraq böyükdür

Davos Forumunun keçirilməsində əsas məqsəd dövlət və hökumət başçılarını, beynəlxalq təşkilatları, elm adamlarını, nüfuzlu siyasətçiləri, iqtisadçıları, biznesmenləri birliyə cəlb etmək, onların arasında əlaqə yaratmaq və dünyada yaranmış iqtisadi problemlərin birgə aradan qaldırılmasına nail olmaq, yeni beynəlxalq iqtisadi layihələrin həyata keçirilməsini müzakirə və təşkil etməkdir. Davos İqtisadi Forumunun əhəmiyyətini artıran mühüm göstəricilərdən biri də burada dünyanın birillik iqtisadi gündəliyinin müəyyən edilməsidir. Hazırda dövlət-özəl tərəfdaşlığına çalışan Dünya İqtisadi Forumu müstəqil və tərəfsiz beynəlxalq ictimai təşkilatdır. İllik toplantılarda bütün sektorları təmsil edən iştirakçılar məsələlərin həllinə yönəlmiş müzakirələr aparırlar.

Beynəlxalq medianın iştirakı, televiziya və veb-yayımları sayəsində Davos İqtisadi Forumu geniş ictimaiyyətin diqqət mərkəzində olur. Forumun rəsmi saytında yerləşdirilən Prezident İlham Əliyevin "Azərbaycanın vahid və dayanıqlı dünyada rolu" sərlövhəli məqaləsində bununla bağlı deyilir: "Dünya İqtisadi Forumu siyasətçiləri, biznes adamlarını və ictimai təşkilatları bir araya gətirən və dünyada baş verən iqtisadi proseslərin, dünyanın iqtisadi gündəliyinin, habelə ictimai-siyasi proseslərin müzakirə olunduğu ən böyük platformalardan biridir. Forum dünyada gedən iqtisadi meyillər haqqında dolğun məlumat əldə etməyə geniş imkan verir".

Təbii ki, bu işə Azərbaycan da öz töhfəsini verir. Çünki ölkəmiz dünyada etibarlı tərəfdaş kimi tanınır və qəbul edilir. Forumun sessiyalarında müzakirə olunan məsələlərin təməlində Azərbaycanın mövqeyi və onun qazandığı uğurlar da var. Ona görə artıq neçə illərdir ki, Dünya İqtisadi Forumunda uğurla təmsil olunan Azərbaycana maraq həmişə böyükdür. Bu maraq 50-ci Forumda iştirak edən Prezident İlham Əliyevin keçirdiyi görüşlərdən də hiss olundu. Xatırladaq ki, indiyədək İlham Əliyev 14 dəfə Davos İqtisadi Forumunda iştirak edib.

### Forumun Azərbaycanda regional mərkəzi yaradılacaq

Əsas diqqətçəkən məqamlardan biri foruma qatılan ölkələrin Azərbaycanın dünyada və regionda rolunu yüksək qiymətləndirməsi və bəşəriyyəti narahat edən risklərin aradan qaldırılmasında ölkəmizin mövqeyi ilə hesablaşılmasıdır. Bu baxımdan forum rəhbərliyi hər il yanvar ayında keçirilən toplantılarda Azərbaycanın da təmsil olunmasında maraqlıdır. Çünki ölkəmizin malik olduğu iqtisadi güc bu marağı şərtləndirən əsas amildir. Məhz ölkəmizə olan marağın nəticəsidir ki, bir neçə il əvvəl Bakıda Dünya İqtisadi Forumu keçirilmişdi.

Dünya İqtisadi Forumunun Azərbaycanda regional mərkəzinin yaradılması barədə razılıq isə beynəlxalq səviyyədə ölkəmizə olan etimadın növbəti təzahürüdür. Bununla bağlı Davosda Prezident İlham Əliyev və Dünya İqtisadi Forumunun prezidenti Borge Brende niyyət protokolu imzaladılar. Qeyd edək ki, bu cür mərkəzlər çox məhdud sayda ölkələrdə yaradılır və onların əsas məqsədi dördüncü sənaye inqilabının səbəb olduğu çağırış və imkanların həyata keçirilməsidir. Regional mərkəzin yaradılması Azərbaycanla Davos Forumu arasında əlaqələri yeni mərhələyə qaldıracaq.

Ardı 4-cü səh.

# Azərbaycan üzərinə götürdüyü bütün öhdəliklərə sadiqdir

## Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyanın "Rossiya-24" televiziya kanalına müsahibəsi




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də Dünya İqtisadi Forumu çərçivəsində Davosda Rusiyanın "Rossiya-24" televiziya kanalına müsahibə verib. "Rossiya-1" və "Rossiya-24" kanalları dövlətimizin başçısının müsahibəsini yayımlayıb.

AZƏRTAC "Rossiya-24" televiziya kanalında yayımlanan müsahibəni təqdim edir.

**Aparıcı:** "OPEK+" bu gün neftin ədalətli qiymətini müəyyənləşdirməyə kömək edən çoxtərəfli əməkdaşlığın uğurlu formatıdır. Neft bazarının iştirakçıları arasındakı sövdələşmə öz səmərəsini göstərdi. Onu uzatmaq gərəkdir. Bu fikirləri kanalımıza müsahibədə Davos Forumunun kuluarlarında Azərbaycan Prezidenti İlham Əliyev söyləyib.

**- Yaxın Şərqdə müşahidə olunan gərginlik nəzərə alınmaqla bu il neftin qiymətinin hansı dinamikasını gözləmək olar?**

- Proqnoz vermək çətindir. Düşünürəm ki, qiymətlərin bugünkü səviyyəsi həm istehsalçıları, həm də istehlakçıları qane edir. Azərbaycana gəldikdə, bu il bizim büdcəmizdə neftin bir barrelinin qiyməti 55 dollar nəzərdə tutulub. Lakin indi qiymət xeyli yüksəkdir. Buna görə də düşünürəm ki, əgər hər hansı forsmajor vəziyyət yaranmasa, qiymət 55-65 dollar diapazonunda qalacaq. Üstəlik, "OPEC+" formatı çox səmərəlidir və Azərbaycan bu formatın işində fəal iştirak edir. Biz öz üzərimizə götürdüyümüz öhdəliklərlə əlaqədar hasilatı azaldırıq və mahiyyət etibarilə bu gün OPEC-ə daxil olmayan ölkələr də özlərini OPEC üzvləri kimi aparırlar. Buna görə də "OPEC+" çoxtərəfli əməkdaşlığın olduqca uğurlu formatıdır və bizim fikrimizcə, mahiyyət etibarilə, bu gün neftin qiymətinin ədalətli olduğunu müəyyənləşdirib.

**- Sizin fikrinizcə, "OPEK+" sazişinin müddətini uzatmaq lazımdırmı?**

- Əlbəttə, bu məsələ ən yaxın vaxtlarda müzakirə ediləcək. Lakin hesab edirəm ki, konkret nəticələr gördüyümüzü nəzərə alaraq bunun müddətinin uzadılması, əlbəttə, məqsədəuyğundur. Çünki müddət uzadılmasa, bazarın necə reaksiya verəcəyini bilmirik, yenidən müxtəlif spekulyativ meyillər yarana bilər. Buna görə hesab edirəm ki, müddətin uzadılmasının əhəmiyyəti var.

**- Sizcə, bu gün dünyada çoxqütblülük əlamətləri varmı?**

- Şübhəsiz, bu gün dünya məhz çoxqütblü dünya kimi inkişaf edir. Bir neçə güc mərkəzi var. Əlbəttə, bizi narahat edən məsələlər var - regionumuzda gərginliyin artması. Lakin biz müsbət dinamikanı da görürük, əvvəllər bu cür sıx qarşılıqlı fəaliyyəti olmayan ölkələr bu gün, demək olar ki, müttəfiqlər kimi hərəkət edir və regional sabitliyə böyük töhfə verirlər. Buna görə də çoxqütblü dünya artıq reallıqdır. Düşünürəm ki, bu meyillər getdikcə daha da möhkəmlənəcək. Bu, müsbət haldır, çünki bu, dünyada sabitliyə zəmanətdir.

**- Hər halda, dünyada ölkələrdən birinin daha çox birqütblü dünyaya meyil etməsi əlaməti yoxdurmu?**

- Bilirsiniz, iri ölkələrin həmişə öz hüdudlarından kənarda maraqları olur və hər ölkə özü üçün daha yaxşı şəraitə nail olmaq, öz təsir dairəsini genişləndirmək istəyir. Burada təzə heç nə yoxdur. Biz bunu əsrlərboyu müşahidə edirik, sadəcə, müxtəlif intensivlik dərəcəsi ilə. Buna görə məsələ bunda deyil, bugünkü dünya nizamının konstruksiyası, o cümlədən beynəlxalq münasibətlərin konstruksiyası çoxqütblülüyü nəzərdə tutur. BMT Təhlükəsizlik Şurasının daimi üzvlərinin tərkibinə baxsaq, bu, artıq dünyanın çoxqütblülüyünün əksidir. Daimi üzvlərdən birinin razılığı olmadan heç bir qərar qəbul edilə bilməz. Buna görə də düşünürəm ki, ölkələr özləri üçün birqütblülüyü təmin etməyə çalışmamalı, əksinə, hamı üçün sərfəli olan əməkdaşlıq elementləri tapmalıdırlar.

**- Azərbaycan Belarus Respublikasını neftlə təchiz edəcəkmi?**

- Bilmirəm. Bu sual mənə deyil, yəqin ki, Neft Şirkətinə aiddir. Bir neçə il bundan əvvəl biz Belarusu neftlə təchiz edirdik və sonradan Belarus tərəfinin təşəbbüsü ilə bu proses dayandırılmışdır. Əgər yenidən belə ehtiyac yaransa, Azərbaycan Dövlət Neft Şirkəti bu məsələni nəzərdən keçirəcək. Bu gün "SOCAR Traiding" şirkəti ən iri treydinq şirkətlərindən biridir və onun satdığı neftin çox hissəsi Azərbaycanda hasil edilməyən neftdir. Buna görə, sırf texniki baxımdan Azərbaycan şirkəti nefti istənilən yerə tədarük edə bilər. Lakin qiymət məsələsi, logistika məsələsi, kontrakt öhdəlikləri ilə bağlı məsələ - bütün bunlar müvafiq şirkətlər arasında müzakirə edilməlidir.

**- Çox sağ olun.**

- Sağ olun.

---

9 fevral Milli Məclisə seçkilər günüdür

# Lənkəran parlament seçkilərinə ciddi hazırlaşır

Ölkəmizin həyatında böyük əhəmiyyət kəsb edən bu mühüm kampaniyaya - fevralın 9-da keçiriləcək parlament seçkilərinə hazırlıq işləri başa çatmaq üzrədir. Respublikamızın hər yerində olduğu kimi, Lənkəranda da səsvermənin qanunun tələblərinə uyğun keçməsi üçün hər cür şərait yaradılmışdır.

73 saylı Lənkəran şəhər dairə seçki komissiyasının sədri Kərim Heydərov parlament seçkilərinə hazırlıq işləri ilə bağlı dedi ki, DSK-nın əhatə etdiyi ərazidə 28 seçki məntəqəsi fəaliyyət göstərir. Məntəqələrin hamısında parlament seçkilərinə hazırlıq işləri MSK-nın təsdiq etdiyi Təqvim Planına uyğun olaraq həyata keçirilir. Seçkilərin gedişini izləmək üçün 12 məntəqədə veb-kamera quraşdırılıb. Seçki dairəsi üzrə qeydə alınmış namizədlərin sayı 9 nəfərdir. DSK-nın əhatə etdiyi məntəqələrdə 35 min 500 nəfər seçici var. Onların 185 nəfəri ilk dəfə səs verənlərdir. Məntəqə seçki komissiyalarının sədrlərinin və üzvlərinin maarifləndirilməsi üçün treninq keçirilib. Seçkilərin gedişini izləmək üçün 347 nəfər müşahidəçi qeydə alınıb.

Ardı 5-ci səh.

---

2020-ci il "Könüllülər ili"dir



# Könüllülük gəncliyin sabaha açılan pəncərəsidir

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə 2020-ci il "Könüllülər ili" elan olunmuşdur.**

Əminliklə qeyd etmək olar ki, dövlət başçısının xüsusi diqqəti beynəlxalq təcrübədə artıq özünü sübut etmiş könüllülər hərəkatının respublikamızın gənclər siyasətində və ümumilikdə ictimai-sosial münasibətlər sistemində mövqeyinə güclü təkan verəcəkdir. Bu baxımdan mövcud təcrübə və potensial imkanlar cari ilin əsas missiya və hədəflərinin müəyyənləşdirilməsi üçün əlamətdar olacaqdır.

### Tarixə ekskurs fonunda missiya və vəzifələr

Könüllülük fəaliyyətinin tarixi bəşər cəmiyyətinin yarandığı ilk dövrdən başlayır. Könüllülüyü hər hansı bir tarixi hadisə zamanı baş verənlərlə əlaqələndirmək və konkret tarixi dövrü göstərmək əslində reallıqdan kənardır.

Ardı 4-cü səh.

---

# «Cənub qaz dəhlizi»nin sonuncu seqmentinin çəkilişi başa çatır

## Prezident İlham ƏLİYEV: "Bu il TAP-ın istismara verilməsini də nəzərdə tutulmuş vaxtda qeyd edəcəyik"

**Bu il Trans-Adriatik Qaz Boru Kəmərinin (TAP) çəkilişinin tamamlanması ilə nəhəng "Cənub qaz dəhlizi" layihəsinin icrası başa çatacaq. Bu, ölkəmizə zəngin qaz ehtiyatlarını Avropa bazarlarına şaxələndirilmiş yolla çatdırmağa imkan verəcək.**

Prezident İlham Əliyevin yanında keçirilən 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə "Cənub qaz dəhlizi"nin sonuncu seqmenti olan TAP layihəsinin də uğurla icra edildiyi vurğulanıb. Dövlət başçısı müşavirədəki nitqində TAP-ın icra səviyyəsinin 90 faizi keçdiyini və kəmərin bu il, yəni nəzərdə tutulduğu vaxtda istismara veriləcəyini qeyd edib.

TAP strateji əhəmiyyətli layihədir. Avropanın mavi yanacağa olan tələbatını ödəyəcək və enerji təhlükəsizliyinə ciddi dəstək verəcək. Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində hasil olunan qazı Türkiyəyə və oradan da Avropaya daşıyacaq 3500 kilometrlik "Cənub qaz dəhlizi"nin tərkib hissəsi olan TAP Cənubi Qafqaz Boru Kəmərinin (CQBK) və Trans-Anadolu Qaz Boru Kəmərinin (TANAP) davamıdır.

Ardı 6-cı səh.

# Sumqayıt şəhərinin qəsəbələrində və yeni yaşayış massivlərində avtomobil yollarının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Sumqayıt şəhərinin qəsəbələrində və yeni yaşayış massivlərində avtomobil yollarının əsaslı təmiri məqsədilə Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 6,4 milyon (altı milyon dörd yüz min) manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 yanvar 2020-ci il*

# Strasburqda AŞ PA-nın qış sessiyası başlayıb

Yanvarın 27-də Strasburqda Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) qış sessiyası başlayıb.

AZƏRTAC xəbər verir ki, sessiyada Milli Məclisin AŞ PA-dakı daimi nümayəndə heyətinin rəhbəri, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidovun başçılıq etdiyi nümayəndə heyəti iştirak edir. Nümayəndə heyətinə deputatlardan Sevinc Fətəliyeva, Sahibə Qafarova, Rafael Hüseynov, Asim Mollazadə, Sabir Hacıyev və Naqif Həmzəyev daxildir.

Sessiyada əvvəlcə AŞ PA-nın yeni prezidenti seçiləcək. Qurumun prezidentliyinə bir namizəd var və o, Belçikadan olan deputat Hendrik Daemsdir.

Qış sessiyası çərçivəsində Moldova və Gürcüstanın prezidentlərinin, eləcə də Gürcüstanın Xarici İşlər nazirinin, Avropa Şurası Nazirlər Komitəsinin sədrinin və baş katibinin çıxışları gözlənilir. Sessiyada "Liviya və Orta Şərqdə son inkişaflar: Avropa üçün hansı nəticələr?" və "Miqrasiya və Brexit-in nəticələri" mövzuları, eləcə də qurumun Nizamnaməsindəki öhdəliyin üzv dövlətlər tərəfindən ciddi pozulduğu hallarda Nazirlər Kabineti və Assambleya arasında birgə əlavə prosedurlarla bağlı olacaq.

Parlamentarilər media azadlığı və jurnalistlərin təhlükəsizliyinə təhdidlərə, eləcə də iş yerlərində dini azadlığın müdafiəsinə dair müzakirələr aparacaqlar.

Assambleyada miqrant alveri, qaçqın və miqrant uşaqların oğurlanması, orqan transplantasiyası və alveri kimi mövzular ətrafında birgə debatlar təşkil ediləcək.

Azərbaycan deputatları müzakirələrdə çıxış edəcək, gündəlikdəki məsələlərə münasibət bildirəcəklər.

Sessiya çərçivəsində yanvarın 28-də Azərbaycan nümayəndə heyətinin təşkilatçılığı ilə 20 Yanvar faciəsinin 30-cu ildönümünə həsr olunmuş tədbir keçiriləcək.

Qeyd edək ki, sessiya yanvarın 31-dək davam edəcək.

# Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin görüşü Cenevrədə olacaq

Bu il yanvarın 29-30-da İsveçrənin Cenevrə şəhərində Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarovun ATƏT-in Minsk qrupunun həmsədrləri və Ermənistanın Xarici İşlər naziri Zöhrab Mnatsakanyan ilə görüşünün keçirilməsi nəzərdə tutulur.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

# Bakıda Beynəlxalq Holokost Qurbanlarının Anım Günü ilə əlaqədar mərasim keçirilib

Yanvarın 27-də Bakıda Beynəlxalq Holokost Qurbanlarının Anım Günü ilə əlaqədar mərasim keçirilib.



AZƏRTAC xəbər verir ki, mərasimdə çıxış edən Avropa Yəhudilərinin Bakı Dini İcmasının sədri Aleksandr Şarovski yəhudi xalqına qarşı törədilən soyqırımından danışıb. Bildirib ki, yəhudi xalqı milli mənsubiyyətinə görə soyqırımına məruz qalıb. Ancaq şər qüvvələr öz cəzalarını alıblar.

Aleksandr Şarovski qeyd edib ki, Azərbaycan yəhudi xalqının təhlükəsiz şəraitdə yaşadığı ölkədir. İkinci Dünya müharibəsi zamanı da onlar ölkəmizdə tam təhlükəsiz şəraitdə yaşayıblar.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxışında bildirib ki, altı milyon günahsız insanın ancaq dini və milli mənsubiyyətinə görə qətlə yetirilməsi dəhşətli hadisədir. Bu hadisələr hər zaman insanları çox təsirləndirəcək. Yəhudi xalqının, Azərbaycan yəhudilərinin və həmvətənlərimizin dərdini, qəmini dərindən anlayırıq. Əlbəttə ki, faciənin əhatə dairəsi böyük və ya kiçik olmur. Faşizm, ksenofobiya bu gün də yaşayır. Bu, bəşəriyyətin faciəsidir.

Komitə sədri qeyd edib ki, XX əsrin sonlarında belə bir faciə Azərbaycan xalqının da başına gətirilib. Günahsız insanlar məhz azərbaycanlı olduqlarına görə Xocalıda qəddarlıqla qətlə yetiriliblər.

Sonra çıxış edən İsrailin Azərbaycandakı səfiri Corc Dik bildirib ki, bu gün tək Holokost qurbanlarının deyil, faşizm qurbanlarının da xatirəsi anılır. Bu gün həmçinin yəhudiləri zülmdən azad etmək üçün özünü qurban vermiş azərbaycanlıların da xatirəsi yad edilir. Bildirib ki, irqçiliyə görə törədilən belə cinayətlər təkcə bir xalq üçün deyil, bütün bəşəriyyət üçün təhlükədir. Bu təhlükəni bir daha yaşamamaq, bundan yayınmaq üçün keçmişi unutmamaqla gələcəyi qurmaq lazımdır. Tolerant birgəyaşayışın alternativi yoxdur.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov bildirib ki, Holokost qurbanlarının xatirəsi hər il anılır. Yetmiş beş il bundan əvvəl baş verən hadisə beynəlxalq ictimaiyyətdə ciddi narahatlıq doğurur. Ancaq insanlıq bundan kifayət qədər dərs götürməyib. Çünki XX əsrin sonlarında Xocalı faciəsi törədildi. Holokostu və Xocalını unutmayaq!

Avropa yəhudiləri icmasının baş ravini Şeneyer Seqal yəhudi xalqının İkinci Dünya müharibəsi zamanı üzləşdiyi faciədən bəhs edib. O əlavə edib ki, Holokost dünya ictimaiyyətinin üzləşdiyi bəşəri cinayətdir.

Sonra Holokost qurbanlarının xatirəsinə həsr olunmuş musiqili kompozisiya nümayiş etdirilib.

Daha sonra Holokost qurbanlarının xatirəsinə ehtiram olaraq şam yandırılıb və dualar oxunub.

Xatırladaq ki, BMT Baş Assambleyası tərəfindən 2005-ci il noyabrın 1-də qəbul olunmuş müvafiq qətnaməyə əsasən hər il yanvarın 27-si Beynəlxalq Holokost Qurbanlarının Anım Günü kimi qeyd edilir.

# *Azərbaycanlı tələbələr:* "Zəlzələ bölgəsindən təxliyə olunmağımıza göstəriş verən Prezidentimizə minnətdarıq"

Türkiyənin zəlzələ baş verən bölgələrindən təxliyə edilən 102 azərbaycanlı tələbə və bir uşaq yanvarın 26-da səhər saatlarından etibarən 3 avtobusla Naxçıvana gətirilib.

AZƏRTAC xəbər verir ki, vətəndaşlarımız Naxçıvan Beynəlxalq Hava Limanında qarşılanıb və 15:30-da təyyarə ilə Naxçıvandan Bakıya yola salınıb.

Təxliyə olunanlardan Malatyada təhsil alan Fuad Həsənov bildirib ki, zəlzələdən sonra digərləri kimi, o da yaşadığı yeri tərk edib. Azərbaycana qayıtmaq istəsə də buna maddi imkanı olmayıb. Lakin sonradan Türkiyədəki səfirliyimizdən tələbələrə zəng edilərək bildirilib ki, Azərbaycan Prezidentinin tapşırığına əsasən, onlar heç bir vəsait ödəmədən avtobuslarla Naxçıvana aparılacaq, buradan isə Bakıya yola salınacaqlar. O deyib: "Bizim tələbələrimiz arasında pasportları itən və ya dağıntılar altında qalanları da olub. Oradakı konsulluğumuz bunu nəzərə alıb və həmin tələbələr lazımi sənədlərlə təmin ediliblər. Bizə bu şəraiti yaradan, bizi xilas edən Azərbaycan Prezidentinə minnətdarlığımı bildirirəm".

Malatyada təhsil alan digər tələbə Mələkxanım Alıyeva da dövlət başçısına minnətdarlığını bildirib. Qeyd edib ki, zəlzələdən sonra hər kəs binalardan uzaq yerlərdə qalmağa üstünlük verib. Havaların şaxtalı keçməsi insanların çətinlik çəkməsinə yol açıb. Türkiyə dövləti və xalqı fəlakətdən zərər çəkənlərə hər cür dəstəyi göstərir. O, Azərbaycan Prezidentinin ölkə vətəndaşlarının, o cümlədən tələbələrin təxliyə edilməsi barədə göstərişini sevinclə qarşıladığını vurğulayıb. Bunun dövlətimizin vətəndaşlarına verdiyi yüksək dəyərin ifadəsi olduğunu qeyd edib.

Mələkxanım Alıyeva deyib: "Dövlətimizin öz vətəndaşlarını himayəyə götürərək fəlakət bölgəsindən uzaqlaşdırması Azərbaycan Prezidentinin insanlarımıza verdiyi dəyər kimi həmişə yaddaşımızda qalacaq".

İnönü Universitetinin tələbəsi İlham Məmmədov da tələbə yoldaşlarının fikirləri ilə tam razı olduğunu vurğulayaraq qeyd edib ki, zəlzələ hər kəs kimi onu da qorxudub. O deyib: "Belə vəziyyətlərdə insan nə edəcəyini, hara gedəcəyini bilmir. Çünki qorxu, həyəcan buna imkan vermir. Məhz belə bir vəziyyətdə Prezidentimizin bizi unutmaması, bizim təxliyə olunmağımız barədə göstəriş verməsi bizə, sanki, yenidən həyat bəxş etmiş oldu. Səmimiyyətlə minnətdarlığımı bildirirəm. Dövlətimiz var olsun!"

# *Ceyhun BAYRAMOV:* "Təhsilin inkişafı dövlət siyasətində əsas prioritetlərdən biridir"



Azərbaycanda aparılan genişmiqyaslı islahatlar təhsil sektoruna da müsbət təsir göstərir. Son illər təhsil üzrə strategiya və proqramlar qəbul edilib. Təhsilin inkişafı dövlət siyasətində əsas prioritetlərdən biridir.

AZƏRTAC xəbər verir ki, bu fikri Təhsil naziri Ceyhun Bayramov yanvarın 27-də keçirdiyi mətbuat konfransında söyləyib. 2019-cu ilin yekunlarına və 2020-ci ilin hədəflərinə həsr edilən mətbuat konfransında Təhsil naziri ümumi təhsil müəssisələri infrastrukturunun yaxşılaşdırılması istiqamətində mühüm addımlar atıldığını qeyd edib. Bildirib ki, 2019-cu ildə 84 yeni məktəb binası tikilib və əsaslı təmir olunub. Bu sahədə Heydər Əliyev Fondunun fəaliyyəti xüsusi qeyd edilməlidir. Ötən il fondun təşəbbüsü ilə onlarla məktəb tikilib və təmir edilib. Bununla da ötən ildə 100-ə yaxın məktəb istifadəyə verilib. Yeni məktəb binalarının tikintisi və təmiri bu il də davam etdiriləcək.

Məktəblərdə şagird sıxlığı məsələsinə toxunan Təhsil naziri məlumat verib ki, nazirlik bununla bağlı ciddi addımlar atıb, məsələ 2020-ci ildə də diqqət mərkəzində saxlanılacaq. Görülən işlərə baxmayaraq, bəzi məktəblərdə hələ də şagird sıxlığı var. Azərbaycanda 4500-ə yaxın məktəb fəaliyyət göstərir. Onların təxminən 50 faizində şagirdlərin sayı 200 nəfər və ondan aşağıdır. Ölkə əhalisinin artımını nəzərə alsaq, son illərdə şagirdlərimizin sayı 50 min nəfər artıb. Lakin ölkədə əhalinin sıxlığı bərabər paylanmayıb. Əhali artımı bütün ərazilərdə eyni templə getmir. Daxili miqrasiya da şagird sıxlığına təsir edir. Bütün bunların nəticəsi olaraq müəyyən məktəblərin siniflərində şagird sıxlığı müşahidə olunur. Bunun aradan qaldırılması üçün dövlət səviyyəsində intensiv işlər görülür. Xəzər rayonu Binə qəsəbəsi, Binəqədi rayonu kənd Binəqədi, Sulutəpə, Xırdalan şəhəri, Masazır və Saray yaşayış məntəqələrində yeni məktəb binalarının tikilməsi nəzərdə tutulur.

C.Bayramov bildirib ki, məktəblər üçün nəqliyyat vasitələri sisteminin qurulması ilə bağlı Təhsil Nazirliyinə xeyli müraciətlər edilib. Müraciətləri nəzərə alaraq 2019-cu ildə Bakı Nəqliyyat Agentliyi ilə sıx əməkdaşlığa başlamışıq. 2020-2021-ci tədris ilinin başlanğıcına qədər şagird sayı sıx olan məktəblər üçün nəqliyyat sisteminin təşkilinə nail olacağıq. Bu, birinci mərhələdə bütün məktəbləri əhatə etməyəcək, lakin uğurlu başlanğıc hesab oluna bilər.

Ceyhun Bayramov dərsliklərlə bağlı görülmüş və görüləcək işlərdən də bəhs edib. O deyib ki, 2019-cu ildə hazırlanan və 100 məktəbdə təcrübə üçün istifadə olunan yeni dərsliklər təcrübədə özünü doğruldub. Bu dərsliklərin 2020-2021-ci tədris ilində də tətbiqi nəzərdə tutulur.

Diqqətə çatdırılıb ki, Təhsil Nazirliyi tərəfindən həyata keçirilən "Rəqəmsal bacarıqlar" və STEAM layihələrinin müsbət nəticələri nəzərə alınaraq növbəti illərdə müvafiq istiqamətdə fəaliyyət daha da genişləndiriləcək.

Qeyd olunub ki, təmayülləşmə istiqamətində aparılan işlər nəticəsində şagirdlərin sayı 47 minə çatdırılıb. Ötən il təmayülləşməyə cəlb olunan şagirdlərin nəticələrini təhlil edərkən aydın olur ki, onların nəticələri qeyri-təmayül siniflərindən fərqlənir. Ona görə də 2020-ci ildə təmayül siniflərinin və təmayülləşməyə cəlb olunan şagirdlərin sayının artırılması planlaşdırılır.

"Ötən il şagirdlərimizin uğurları ilə də yaddaqalan oldu. Onlar beynəlxalq olimpiadalarda 40 medal qazanıblar. İnanıram ki, ölkədə təhsil sahəsində atılan addımlar şagirdlərimizin uğurlarının bol olmasına təkan verəcək", - deyə C.Bayramov qeyd edib.

Ölkədə ali təhsil sistemində xeyli islahatlar aparıldığını xatırladan nazir deyib ki, tələbələrin sosial müdafiəsinin yaxşılaşdırılması, ölkədə yüksəkixtisaslı, peşəkar kadrlar hazırlanması, ali təhsildə rəqabət mühitinin formalaşdırılması sahəsində ölkə Prezidenti tərəfindən əhəmiyyətli qərarlar qəbul olunub. 2019-cu ildə dövlət hesabına təhsil alan tələbələrin sayı 66 faiz artıb. Belə ki, 2018-ci ildə 12 min 300 nəfər dövlət hesabına ali təhsil müəssisələrinə qəbul olunubsa, 2019-cu ildə bu rəqəm 20 min 500-ə çatdırılıb. Təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı sərəncama əsasən, dövlət hesabına maliyyələşən təqaüd yerlərinin sayı artırılıb. 2020-2021-ci tədris ilində isə təqaüd alan tələbələrin sayının 50 faizə çatdırılması nəzərdə tutulur. Tələbələrin yataqxana şəraitinin yaxşılaşdırılması istiqamətində də işlər görülüb.

# Mərkəzi Seçki Komissiyasında

## Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib

Yanvarın 27-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.

MSK Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, əvvəlcə komissiyanın 17 yanvar 2020-ci il tarixli iclasının protokolu təsdiq olunub.

Sonra 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası ("AJF&Associates İnc." təşkilatı (Amerika Birləşmiş Ştatları) ilə birgə) tərəfindən "exit-poll" keçirilməsi niyyəti ilə MSK-ya ünvanlanan müraciətə baxılıb. Komissiya qanunvericiliklə nəzərdə tutulan müddətdə və qaydada müvafiq araşdırma aparılaraq iclasa çıxarılan müraciəti müzakirə etdikdən sonra sözügedən təşkilatın qarşıdan gələn Milli Məclisə seçkilərdə "exit-poll" keçirmək üçün qeydə alınması barədə qərar qəbul edib.

Daha sonra Milli Məclisə seçkilərlə əlaqədar seçki hüququnun mübahisələndirilməsi iddiası ilə daxil olan müraciətə baxılıb və aparılan geniş müzakirələr nəticəsində müraciətlə bağlı əsaslandırılmış qərar qəbul olunub.

Milli Məclisə seçkilərin izlənməsinə qatılan beynəlxalq müşahidəçilərin və kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirak etdikləri iclasda, həmçinin 35 saylı Xətai üçüncü seçki dairəsi dairə seçki komissiyasının tərkibində dəyişiklik edilib və cari məsələlərə baxılıb.

### Qərar № 15/97

### Mərkəzi Seçki Komissiyasının 17 yanvar 2020-ci il tarixli iclas protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 17 yanvar 2020-ci il tarixli iclasının protokolu təsdiq edilsin.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*27.01.2020-ci il*

### Qərar № 15/98

### Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə səsvermə günü ABŞ-ın "AJF&Associates, Inc." təşkilatı ilə birgə "exit-poll" keçirəcək qurum kimi qeydə alınması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) müraciət edərək, 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə səsvermə günü ABŞ-ın "AJF&Associates, Inc." təşkilatı ilə birgə "exit-poll" keçirmək niyyətində olduqlarını bildirmiş və bu məqsədlə qeydə alınmasını xahiş etmişdir.

Müraciət akkreditasiya üçün zəruri olan sənədlərlə birlikdə Mərkəzi Seçki Komissiyasına təqdim edilmiş, qanunvericiliklə nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparılmış, həmin təşkilatın qeydə alınması üçün hüquqi əsasların olması müəyyən edilmişdir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 25.2.23-cü maddəsinə müvafiq olaraq Mərkəzi Seçki Komissiyası tərəfindən qəbul edilmiş "Azərbaycan Respublikasında seçkilərdə "exit-poll" keçirən təşkilatların akkreditasiyası Qaydaları" ilə "exit-poll" keçirmək niyyətində olan qurumların qeydiyyatına dair tələblər müəyyən olunmuşdur. Həmin Qaydaların 2.3-cü bəndinə əsasən "exit-poll" keçirmək niyyətində olan təşkilatların yazılı müraciətlərinə 10 gün müddətində baxılmalı, müraciətlə birgə təqdim olunmuş sənədlər araşdırılmalı və müvafiq təşkilatın akkreditasiyadan keçirilib-keçirilməməsi barədə əsaslandırılmış qərar qəbul edilməlidir.

Təqdim edilmiş sənədlər Qaydaların tələblərinə cavab verdiyindən, Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının akkreditasiyadan keçmək barədə müraciəti təmin olunmalıdır.

Yuxarıda qeyd edilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 25.2.23-cü, 28.2-ci, 28.4-cü maddələrinə və adı çəkilən Qaydaların 2.3-cü bəndinə əsasən **qərara alır:**

1. Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə səsvermə günü ABŞ-ın "AJF&Associates, Inc." təşkilatı ilə birlikdə "exit-poll" keçirəcək qurum kimi qeydə alınsın.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*27.01.2020-ci il*

### Qərar № 15/99

### 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 26 yanvar 2020-ci il tarixli 36 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 17 saylı Yasamal üçüncü seçki dairəsi üzrə qeydə alınmış namizəd Cavadov Cavad Yusif oğlu 26 yanvar 2020-ci ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsi üzrə qeydə alınmış namizəd Allahverdiyev Elnur Marat oğlunun başqa dövlət qarşısında öhdəliyinin olmasını iddia edərək onun namizədliyinin ləğv edilməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılmış, rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Qeydə alınmış namizəd C.Y.Cavadov müraciətində iddia edir ki, 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 17 saylı Yasamal üçüncü seçki dairəsi üzrə qeydə alınmış namizəd Allahverdiyev Elnur Marat oğlu Sloveniya Respublikasının Azərbaycanda fəxri konsuludur və bununla əlaqədar o, xarici dövlət qarşısında öhdəliyi olan şəxsdir. Qeyd edilən hal Azərbaycan Respublikasının Konstitusiyasına ziddir və onun namizədliyi ləğv olunmalıdır. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının 85-ci maddəsində göstərilir ki, başqa dövlətlər qarşısında öhdəliyi olan şəxslər Azərbaycan Respublikasının Milli Məclisinə deputat seçilə bilməzlər.

Araşdırma prosesində ərizəçinin müraciətində göstərdiyi telefon nömrəsinə edilən zənglərə cavab verilməmiş, həmin telefon nömrəsinə sms göndərilərək iclasa dəvət edilsə də o, komissiyanın iclasına gəlməmişdir.

Araşdırma ilə əlaqədar qeydə alınmış namizəd E.M.Allahverdiyevin Sloveniya Respublikasının Azərbaycan Respublikasındakı fəxri konsul kimi fəaliyyəti ilə bağlı Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə sorğu verilmişdir.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Dövlət Protokolu İdarəsindən daxil olmuş 27 yanvar 2020-ci il tarixli məktubda göstərilir ki, Sloveniya Respublikasının Azərbaycan Respublikasındakı fəxri konsulu E.M.Allahverdiyevə verilmiş K 2055 nömrəli Fəxri Konsul vəsiqəsinin etibarlılıq müddəti 29 dekabr 2019-cu il tarixdə bitmişdir. Bununla bağlı Sloveniya Respublikasının Azərbaycan Respublikasındakı Fəxri Konsulluğu 28 dekabr 2019-cu ildə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə rəsmi nota ilə müraciət edərək 2020-ci il fevralın 9-da Milli Məclisə keçiriləcək seçkilərdə E.M.Allahverdiyevin namizədliyinin irəli sürülməsi ilə əlaqədar Fəxri Konsul vəsiqəsinin etibarlılıq müddətinin bitdiyi 29 dekabr 2019-cu il tarixdən qeyd olunan şəxsin konsulluq fəaliyyətini dayandırdığını bildirmişdir. Bununla yanaşı, Sloveniya Respublikasının Türkiyə Respublikasındakı Səfirliyi (eyni zamanda Azərbaycan Respublikasında akkreditə olunmuşdur) Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə rəsmi nota ilə müraciət edərək E.M.Allahverdiyevin Sloveniya Respublikası qarşısında heç bir öhdəliyinin olmadığını bildirmişdir. Məktuba, həmçinin Sloveniya Respublikasının Azərbaycan Respublikasındakı Fəxri Konsulluğunun notasının və Sloveniya Respublikasının Türkiyə Respublikasındakı Səfirliyinin notasının surətləri əlavə edilmişdir.

Araşdırma ilə eyni zamanda müəyyən edilmişdir ki, E.M.Allahverdiyev 17 saylı Yasamal üçüncü seçki dairəsi üzrə namizəd kimi 3 yanvar 2020-ci ildə, yəni konsulluq fəaliyyəti dayandırıldıqdan sonra qeydə alınmışdır.

Göstərilənlərə əsasən qeydə alınmış namizəd C.Y.Cavadovun müraciətində qeyd olunanlar təsdiqini tapmadığından müraciət təmin edilməməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 17 saylı Yasamal üçüncü seçki dairəsi üzrə qeydə alınmış namizəd Cavadov Cavad Yusif oğlunun 26 yanvar 2020-ci il tarixli 36 saylı müraciəti əsassız olduğundan təmin edilməsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*27.01.2020-ci il*

### Qərar № 15/100

### Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22.1-ci, 22.3.1-ci, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **qərara alır:**

1. İmran Heydərəli oğlu Hüseynəliyev 35 saylı Xətai üçüncü seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü vəzifəsindən vaxtından əvvəl azad edilsin.

2. Qarat Şahnəzər oğlu Qaratov 35 saylı Xətai üçüncü seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsin.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*27.01.2020-ci il*

# 9 fevral Milli Məclisə seçkilər günüdür

## Mərkəzi Seçki Komissiyası Milli Məclisə seçkilərlə əlaqədar seçki bülletenlərinin çapına başlayıb

Mərkəzi Seçki Komissiyası 2020-ci il fevralın 9-da Milli Məclisə keçiriləcək seçkilərlə əlaqədar seçki bülletenlərinin çapına başlayıb.





AZƏRTAC xəbər verir ki, bu məqsədlə Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov və komissiya üzvləri yanvarın 27-də Milli Məclisin Mətbəəsinə baxış keçirərək, çap prosesinin gedişi və mətbəədə yaradılan şəraitlə tanış olublar.

Tədbirdə sədr Məzahir Pənahov seçicilərimizin konstitusion hüquqlarından azad və sərbəst şəkildə istifadə etmələri üçün böyük əhəmiyyət kəsb edən bülletenlərin Seçki Məcəlləsində nəzərdə tutulan vaxtda və qaydada hazırlanıb çap edilməsi, eləcə də aşağı seçki komissiyalarına verilməsi üçün qanunvericiliyin tələblərinə dəqiqliklə riayət olunmasının zəruriliyini diqqətə çatdırıb və tövsiyələrini verib. Milli Məclisə seçkilərin iştirakçısı olan bütün maraqlı subyektlər, beynəlxalq təşkilatlar, seçki müşahidə missiyaları və kütləvi informasiya vasitələri üçün istisnasız açıq və şəffaf olan tədbir çərçivəsində Mərkəzi Seçki Komissiyasının sədri media mənsubları üçün brifinq keçirərək, seçkilərin azad və ədalətli keçirilməsi istiqamətində gerçəkləşdirilən layihələr, həmçinin son hazırlıq işləri barədə ətraflı məlumat verib və jurnalistlərin suallarını cavablandırıb.

Sədr bildirib ki, Milli Məclisə seçkilərlə əlaqədar seçki bülletenlərinin mətni, forması, sayı və hazırlanma qaydasına dair tələblər komissiyanın qərarına əsasən müəyyən olunub və 5 387 600 (beş milyon üç yüz səksən yeddi min altı yüz) seçki bülleteninin çap olunması nəzərdə tutulub. Bülletenlər çap olunduqca Seçki Məcəlləsinin tələblərinə uyğun şəkildə Mərkəzi Seçki Komissiyasından dairə seçki komissiyalarına, oradan isə məntəqə seçki komissiyalarına veriləcək.

Qeyd etmək lazımdır ki, seçki bülletenlərinin çap prosesinin mühafizəsi Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti tərəfindən həyata keçirilir.

## *MSK sədri:* "Çalışırıq ki, namizədliyini geri götürən şəxslərin adları seçki bülletenınə düşməsin"

Hansısa namizəd seçki bülletenləri çap olunana qədər mübarizəni dayandırsa, həmin namizədin adının bülletendən çıxarılması üçün addımlar atılacaq.



AZƏRTAC xəbər verir ki, bunu Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov jurnalistlərə açıqlamasında bildirib.

MSK sədri deyib ki, namizədin adının seçki bülletenindən çıxarılması mümkün olmasa, Seçki Məcəlləsinin tələbinə görə, onun adının üstündən xətt çəkiləcək. "Biz hər zaman çalışırıq ki, deputatlığa namizədliyini geri götürən şəxslərin adları seçki bülletenınə düşməsin" deyə M.Pənahov bildirib.

Qeyd edək ki, Milli Məclisə parlament seçkiləri fevralın 9-da keçiriləcək.

## 29 saylı Səbail seçki dairəsi dairə seçki komissiyasında maarifləndirici treninqlər təşkil edilib





Yanvarın 27-də 29 saylı Səbail seçki dairəsi dairə seçki komissiyasında məntəqə seçki komissiyalarının sədrləri və üzvləri üçün üçgünlük maarifləndirici treninqlər təşkil edilib.

AZƏRTAC xəbər verir ki, dairə seçki komissiyasının sədri Cahangir Məmmədov fevralın 9-da ölkəmizdə keçiriləcək Milli Məclisə seçkilərə hazırlıqlarla əlaqədar Mərkəzi Seçki Komissiyasının (MSK) maarifləndirmə proqramı çərçivəsində MSK-nın müvafiq təlimatı və tövsiyəsi əsasında təşkil edilən treninqlərin mühüm əhəmiyyətə malik olduğunu bildirib. O qeyd edib ki, bu təlimlər seçkilərin şəffaf və qanunamüvafiq təşkili üçün önəm daşıyır. Burada seçkilərə hazırlığın gedişi haqqında aydın və hərtərəfli məlumat verilir.

Diqqətə çatdırılıb ki, dairə və məntəqə seçki komissiyaları üzvlərinin peşəkarlıq səviyyəsinin artırılması, seçkilər sahəsində bilik, bacarıq və vərdişlərinin daha da təkmilləşdirilməsi məqsədilə MSK-nın Treninq Qrupu tərəfindən təlimlər cədvəli, eləcə də seçki günü əsas seçki hərəkətləri ilə bağlı slaydlar hazırlanıb. Aşağı seçki komissiyaları üçün treninqlər yanvarın 27-dən başlayıb və üç gün davam edəcək. Tədbirdə trenerlər iştirakçıları səsvermə günü onların görəcəkləri işlər, seçki məntəqələrinin açılışına hazırlıqlar, səsvermə saatlarında reallaşdırılacaq tədbirlər barədə təqdimatlarla və slaydlarla izahlı şəkildə məlumatlandırırlar.

Dairə üzrə treninqlər əyani vəsaitlərdən də istifadə edilməklə, kiçik qruplar şəklində - hər təlim sessiyasında 40 nəfərədək komissiya üzvünün iştirakı ilə keçirilir. Eləcə də seçki günü qanunamüvafiq səsvermə hərəkətləri, eləcə də qanunsuz hərəkətlərin qarşısının alınması barədə məlumat verilir.

Seçkilərlə bağlı dairə seçki komissiyasının ərazisindəki məntəqələrdə görülən işlər barədə məlumat verən C.Məmmədov AZƏRTAC-a müsahibəsində qeyd edib ki, dairədə Milli Məclisə seçkilərə hazırlıq işləri uğurla davam etdirilir. Treninqlərdə seçkiöncəsi, seçki günü və seçkidən sonra görüləcək işlər haqqında məntəqə seçki komissiyalarının üzvləri maarifləndirilir. Məntəqələrdə seçkilərin şəffaf və demokratik keçirilməsi, komissiya üzvlərinin normal fəaliyyəti üçün lazımi şərait yaradılıb. 38 min 856 seçicisi olan dairə seçki komissiyasının ərazisində 30 daimi seçki məntəqəsi fəaliyyət göstərir. Əlavə olaraq iki hərbi hissədə müvəqqəti məntəqə yaradılıb. Komissiya üzvlərinin normal fəaliyyət göstərmələri üçün məntəqələrdə hər cür şərait yaradılıb, seçici siyahıları dəqiqləşdirilib. Bütün məntəqələr lazımi texniki avadanlıqlarla və məlumat kitabçaları ilə təchiz edilib. Məntəqələr üzrə seçicilərə bildirişlər paylanılır. Dairə üzrə ümumilikdə iyirmi namizəd qeydə alınıb. Şəffaflığın təmin olunması məqsədilə məntəqələrin 12-də veb-kameralar, eləcə də fiziki imkanı məhdud seçicilərin qeydiyyata alındığı məntəqələrdə isə panduslar quraşdırılıb.

Dairə seçki komissiyasının katibi Elmar Hüseynov tərəfindən aparılan təlimlərdə səsvermə günü məşvərətçi səs hüquqlu üzvlərin, müşahidəçilərin və KİV nümayəndələrinin hüquq və vəzifələri və onlarla iş qaydası, seçki günü məntəqə seçki komissiyalarının rolu və fəaliyyəti məsələlərinə toxunulub. Bundan başqa, seçki günü prosesləri və baş verə biləcək müstəsna hallar, səslərin sayılmasına hazırlıq, bülletenlərin təsnifatı, səsvermənin nəticələri barədə yekun protokolun hazırlanması və doldurulması, səsvermə prosedurlarına dair nəzəri və praktiki tapşırıqlar məşğələlərin gedişində təfsilatlı və əyani formada təqdim olunur.

Tədbirdə seçkilərə hazırlıq, onun keçirilməsi, səslərin hesablanması prosesi, onlara hazırlıq və nəticələrin rəsmiləşdirilməsi işində məntəqə seçki komissiyalarının üzvlərinin vəzifələri və fəaliyyətlərinin təşkili məsələlərindən, aşağı seçki komissiyaları tərəfindən seçki hüququnun qorunması mexanizmlərindən də bəhs olunub. Həmçinin iştirakçılara seçki məntəqələrinin səsverməyə hazırlanması barədə ətraflı məlumat verilib.

Dairə seçki komissiyasının üzvü Hikmət İsmayılov seçici siyahıları ilə iş qaydası və onların dəqiqləşdirilməsi məsələlərinə də toxunub. O, seçkilərin tam demokratik şəraitdə keçirilməsi üçün komissiya üzvlərinin öz işlərinə məsuliyyətlə yanaşmasının önəmini vurğulayıb. Bildirib ki, səsvermə günü qanunvericiliyə əsasən səsvermə prosesi ilə bağlı məlumatların ictimaiyyətə çatdırılması üçün yerli və beynəlxalq müşahidəçilərin, KİV-in fəaliyyətinə hər cür şərait yaradılacaq. Seçki komissiyalarının üzvləri müşahidəçilərlə, mətbuat işçiləri ilə təlimata uyğun işləməyin qaydalarını dəqiq öyrənməlidirlər.

Sonra müxtəlif mövzular ətrafında müzakirələr aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Sonda hər bir məntəqə seçki komissiyası üzvünə yaxından tanış olmaq və təlimlərdə istifadə etmək məqsədilə MSK tərəfindən hazırlanan "Seçki günü üçün yaddaş" kitabçası, səsvermənin nəticələri haqqında protokol nümunəsi və bir sıra digər sənəd nümunələri təqdim edilib.

## Şəkidəki seminar-müşavirədə Milli Məclisə seçkilərdə polisin xidməti fəaliyyətinə dair məsələlər müzakirə olunub

Fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərin sabitlik və əmin-amanlıq şəraitində keçirilməsi üçün daxili işlər orqanlarının qarşısına qoyulmuş vəzifələrin nümunəvi yerinə yetirilməsi xüsusi əhəmiyyət kəsb edir.





Bu mühüm dövlət tədbirinin ölkə qanunvericiliyinin tələblərinə uyğun təhlükəsiz və demokratik şəraitdə keçirilməsində, seçki günü vətəndaşların öz iradəsini sərbəst və azad ifadə etməsində ictimai asayişin etibarlı qorunması mühüm amillərdən biridir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Milli Məclisə seçkilərdə polisin xidməti fəaliyyətinin daha da təkmilləşdirilməsi ilə əlaqədar yanvarın 27-də Şəki şəhərində keçirilən regional seminar-müşavirədə səsləndirilib.

Mərkəzi Seçki Komissiyası (MSK) və Daxili İşlər Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən tədbir seçki prosesində, eləcə də səsvermə günü polisin xidməti fəaliyyətini, polis orqanları ilə seçki komissiyalarının qarşılıqlı fəaliyyətini təkmilləşdirmək, bu istiqamətdə görülmüş işlərin səmərəliliyini daha da yüksəltmək məqsədi daşıyıb.

Seminar-müşavirədə MSK-nın üzvləri, Daxili İşlər Nazirliyinin əməkdaşları, Şəki-Zaqatala bölgəsində, eləcə də ətraf şəhər və rayonlarda fəaliyyət göstərən 17 seçki dairəsi üzrə dairə seçki komissiyalarının sədrləri, 11 şəhər və rayon polis orqanlarının nümayəndələri iştirak ediblər.

Şəki Şəhər Rayon Polis Şöbəsinin rəisi, polkovnik Azər Muradov və MSK-nın üzvü Tofiq Həsənov çıxış edərək bildiriblər ki, ölkəmizdə seçkilərin keçirilməsi sahəsində böyük təcrübə qazanılıb. Əminliklə qeyd etmək olar ki, Milli Məclisə seçkilər əvvəlki illərdə olduğu kimi, yenə də demokratik, ədalətli, şəffaf, beynəlxalq standartlara uyğun keçiriləcək.

Sonra MSK-nın üzvü Tofiq Həsənov "Seçki qanunvericiliyi, seçki komissiyalarının sistemi, seçki prosesi, onun mərhələləri və müddətləri. Seçki komissiyaları və polis orqanlarının birgə fəaliyyətinin əsasları" mövzusunda təqdimatla çıxış edib. Bildirib ki, MSK Milli Məclisə seçkilər ərəfəsində maarifləndirmə tədbirlərinə xüsusi diqqət ayırır. Belə seminar-müşavirələrin seçki hüququnun həyata keçirilməsində ictimaiyyətin, seçicilərin, bütün seçki subyektlərinin maarifləndirilməsi baxımından xüsusi əhəmiyyəti var.

Seminar-müşavirədə Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin nümayəndəsi, polis polkovniki Hamlet Hümbətəliyev "Seçki kampaniyası dövründə və seçkilərin keçirildiyi gün ictimai qaydaların təmin edilməsi ilə bağlı polis əməkdaşlarının hüquq və vəzifələri. Seçkidən sonrakı dövrdə seçki bülletenlərinin və digər seçki sənədlərinin dairə və Mərkəzi Seçki Komissiyasına gətirilməsi zamanı təhlükəsizlik tədbirlərinin görülməsi" mövzusunda təqdimatla çıxış edib.

Qeyd olunub ki, Milli Məclisə seçkilərlə əlaqədar asayişin mühafizəsi, ictimai qaydaların qorunması və ictimai təhlükəsizliyin təmin olunması ilə bağlı Daxili İşlər Nazirliyinin rəhbərliyi tərəfindən xüsusi tədbirlər planı təsdiq edilib və icrası nəzarətə götürülüb. Seçki kampaniyasının təbliğat-təşviqat mərhələsində, eləcə də səsvermə günü seçicilərin, beynəlxalq müşahidəçilərin və seçki prosesində iştirak edən digər subyektlərin təhlükəsizliyinin təmin edilməsi, hüquqlarının qorunması, polis əməkdaşlarının vətəndaşlarla ünsiyyətdə etik davranış qaydalarına ciddi riayət etmələri və digər bu kimi məsələlər nazirliyin rəhbərliyi tərəfindən daim diqqət mərkəzində saxlanılır.

Diqqətə çatdırılıb ki, seçki kampaniyası ilə əlaqədar dairə və məntəqə seçki komissiyaları nümayəndələrinin polisin fəaliyyəti ilə bağlı qaldırdıqları bütün məsələlər operativ qaydada həll olunacaq. Seçki bülletenləri saxlanılan dairə və seçki məntəqələrinin mühafizəsinin təşkil edilməsi, səsvermədən əvvəl bülletenlərin Mərkəzi Seçki Komissiyasından dairə seçki komissiyalarına və oradan seçki məntəqələrinə, seçki qurtardıqdan sonra isə seçki məntəqələrindən dairə seçki komissiyalarına və oradan Mərkəzi Seçki Komissiyasına gətirilməsi zamanı mühafizənin təmin edilməsi üçün bütün zəruri tədbirlər görüləcək.

Seminar-müşavirədə həmçinin MSK-nın üzvü İlkin Şahbazovun "Seçki subyektləri, onların hüquq və vəzifələri. Seçki subyektlərinin fəaliyyətinə qanunsuz müdaxilənin yolverilməzliyi" mövzusunda təqdimatı dinlənilib.

Sonda seminar-müşavirə iştirakçılarının sualları cavablandırılıb.

Seminar-müşavirədə ATƏT-in beynəlxalq müşahidəçiləri də iştirak ediblər.

## Binəqədi ikinci seçki dairəsi dairə seçki komissiyasında seçkilərə hazırlıq işləri uğurla davam etdirilir

Milli Məclisə seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyasının (MSK) fəaliyyət planına müvafiq olaraq yanvarın 27-də 9 saylı Binəqədi ikinci seçki dairəsi dairə seçki komissiyasında məntəqə seçki komissiyasının üzvləri üçün maarifləndirici treninqlərə başlanılıb.

AZƏRTAC xəbər verir ki, treninqdə plana uyğun olaraq üç gün ərzində iki mərhələdə 37 məntəqə seçki komissiyasının sədri və komissiya üzvləri olmaqla 222 nəfərin iştirakı nəzərdə tutulur. Treninqin birinci günündə 45 nəfər iştirak edib.

Dairə seçki komissiyasının sədri Həsən Bayramov bildirib ki, müasir Azərbaycanda müstəqil dövlətçilik düşüncəsinin formalaşmasında mühüm rol oynayan institutlardan biri də seçki institutudur. Seçki prosesi ölkəmizin beynəlxalq imicinin möhkəmlənməsində böyük rol oynayır. Ona görə də hər dəfə ölkəmizdə keçirilən seçkilər xalq qarşısında hesabat mahiyyəti daşımaqla yanaşı, inkişafın gələcək konturlarını müəyyən edən milli ictimai-siyasi hadisə kimi də çox vacibdir.

Sonra Həsən Bayramov Binəqədi rayonunda seçkilərə aparılan hazırlıq işləri barədə məlumat verib. O deyib ki, sədrlik etdiyi dairə seçki komissiyası səsvermə prosesinin əvvəlki seçkilərdə olduğu kimi, bu dəfə də Seçki Məcəlləsində, Konstitusiyada və digər qanunvericilik aktlarında nəzərdə tutulmuş qaydada, təlimata uyğun yüksək səviyyədə keçirilməsini təmin edəcək. Hazırlıq işləri uğurla davam etdirilir. Məntəqələrdə seçkilərin şəffaf və demokratik keçirilməsi, komissiya üzvlərinin normal fəaliyyəti üçün lazımi şərait yaradılıb.

Məntəqə seçki komissiyalarının sədrləri və komissiya üzvləri üçün təşkil edilən maarifləndirici treninqlərin əhəmiyyətindən danışan H.Bayramov deyib ki, treninqlərdə komissiyaların sədrlərinə və üzvlərinə səsvermə günü görüləcək işlərlə bağlı məlumatlar verilir. O bildirib ki, 9 saylı Binəqədi ikinci seçki dairəsi Bakı şəhərinin iri seçki dairələrindən olmaqla əsasən fərdi evlərin yerləşdiyi Xutor, Rəsulzadə qəsəbəsini və 9-cu mikrorayonun bir hissəsini əhatə edir. 37 seçki məntəqəsinin 6-sı Binəqədi (7894 seçici), 31-i isə M.Ə.Rəsulzadə (41648 seçici) bələdiyyəsini əhatə edir. 49 min 542 seçicinin 77 nəfəri ilk dəfə səs verən gənclərdir. Dairədə 80-100 yaşlı seçicilərin sayı 930 nəfərə yaxındır. İki seçicinin yaşı isə 100-dən yuxarıdır.

Dairə seçki komissiyasının katibi Kəmalə Hacıyeva və üzvü Anar Abbasov tərəfindən aparılan treninqlərdə iştirakçılara "Seçki günü məntəqə seçki komissiyaları üzvlərinin rol və vəzifələri", "Seçki günü prosesləri və müstəsna hallar", "Səslərin hesablanmasına hazırlıq. Seçki bülletenlərinin təsnifatı. Səslərin hesablanması və yekun protokolun doldurulması", "Səsvermə proseslərinə dair praktiki tapşırıqlar" mövzularında məlumatlar verilir.

Trenerlər tərəfindən aparılan debatlarda treninq iştirakçılarını maraqlandıran suallar cavablandırılır.

## Treninqlərə 83 saylı seçki dairəsi üzrə 264 məntəqə seçki komissiyası üzvü cəlb edilib

83 saylı Ağcabədi-Füzuli seçki dairəsi dairə seçki komissiyasında Milli Məclisə seçkilərlə əlaqədar məntəqə seçki komissiyalarının üzvlərinin maarifləndirilməsi üçün treninqlərə başlanılıb.

AZƏRTAC xəbər verir ki, Mərkəzi Seçki Komissiyasının Treninq Qrupunun təqdim etdiyi cədvələ əsasən kiçik qruplarla keçirilən treninqlərdə 83 saylı dairənin tərkibinə daxil olan 44 seçki məntəqəsindən 264 nəfər komissiya üzvünün iştirakı nəzərdə tutulur. Təlimləri Mərkəzi Seçki Komissiyası tərəfindən təşkil edilən "Trenerlər üçün treninq" kursunda iştirak etmiş Bəyoğlan Tağıyev və Dilafət Quliyev aparırlar.

Dairə seçki komissiyasının sədri İbrahim Həsənov treninqlərin məntəqə seçki komissiyaları üzvlərinin bilik, bacarıq və peşəkar vərdişlərinin gücləndirilməsində xüsusilə mühüm rol oynadığını bildirib, seçkilərə hazırlıq, seçkilərin keçirilməsi, məntəqə seçki komissiyalarının vəzifələri və fəaliyyətlərinin təşkili barədə ətraflı danışıb.

Kiçik qruplar şəklində gün ərzində iki dəfə keçirilən treninq zamanı "Seçki günü məntəqə seçki komissiyaları üzvlərinin rol və vəzifələri", "Seçki günü prosesləri və müstəsna hallar", "Səslərin hesablanmasına hazırlıq. Seçki bülletenlərinin təsnifatı. Səslərin hesablanması və yekun protokolun doldurulması" mövzularında təqdimatlar edilir, müzakirələr aparılır və meydana çıxan suallar cavablandırılır. Treninq zamanı həmçinin səsvermə proseslərinə dair praktiki tapşırıqlar da icra edilir.

Treninqlərdə bütün iştirakçılara təlimlərdə istifadə etmək və yaxından tanış olmaq üçün MSK tərəfindən hazırlanan "Seçki günü üçün Yaddaş" kitabçası, səsvermənin nəticələri haqqında protokol nümunəsi və bir sıra digər zəruri material və vəsaitlər də təqdim olunur.

Yanvarın 27-də 48 saylı Yevlax, 49 saylı Yevlax-Mingəçevir, 81 saylı Beyləqan, 82 saylı Ağcabədi, 84 saylı Füzuli, 93 saylı Bərdə şəhər, 94 saylı Bərdə kənd, 95 saylı Tərtər, 118 saylı Ağdam şəhər, 119 saylı Ağdam kənd, 121 saylı Laçın seçki dairəsi dairə seçki komissiyalarında da treninqlər başlayıb.

2020-ci il “Könüllülər ili”dir

# Könüllülük gəncliyin sabaha açılan pəncərəsidir

Əvvəli 1-ci səh.

Çünki mahiyyət etibarilə şəxsi təşəbbüs, başqaları üçün fədakarlıq, xeyriyyəçilik, vətənpərvərlik, xoş niyyət və digər elementlər könüllülük fəlsəfəsinin müxtəlif komponentləridir və konkret tarixi dövrlə bağlı deyil.

Tarixin müxtəlif dövrlərində dini missionerlik, xəstəliklərə qarşı mübarizə, müharibə qurbanlarına yardım, bəşəri ideyaların təbliği, qlobal problemlərin həlli və digər istiqamətlərdə könüllülərin gördüyü iş bir çox hallarda mütəşəkkil, institusionallaşmış mexanizmlərdən daha təsirli və faydalı olmuşdur. Təkcə bir misal göstərmək kifayətdir ki, dinin yayılmasında ayrı-ayrı hallarda mötəbər elm xadimlərinin, ürfan sahiblərinin təsiri bütün məcburetmə formalarından istifadə edən sistemli yanaşmalardan daha təsirli olmuşdur. Orta əsrlərə baxsaq sufi şeyxlərinin öz istəkləri ilə islam dininin və dünyagörüşünün yayılmasında və təbliğində rolu əvəzsizdir. Yaxud yoluxucu xəstəliklərə qarşı mübarizədə lap qədim dövrlərdən başlayaraq günü bu gün də davam edən həkim-təbiblərin fərdi yanaşmaları İbn Sina yolunun təmənnasız davamıdır. Digər bir misal kimi nizamlı ordu və könüllü birləşmələrin müharibələrdə oynadığı rolu qeyd etmək olar. Bu cür misalları cəmiyyətin bütün istiqamətlərdə fəaliyyəti ilə bağlı çəkmək mümkündür. Burda bir məqama fikir vermək lazımdır ki, tarixin müxtəlif dövrlərində könüllülüyə bir ictimai-siyasi proses olaraq fərqli baxış bucağı altında baxmaq doğru olar. Xüsusən də müasir dövrdə - üçüncü minillikdə könüllülük hərəkatı yeni məzmun və mahiyyət daşıyır və klassik anlayışdan kifayət qədər fərqlənir.

Klassik mənada könüllülüyün baza prinsipini altruizm fəlsəfəsi təşkil edir. Fransız filosofu Oqüst Kont (1798-1857) tərəfindən irəli sürülən altruizm başqalarına təmənnasız xidmət göstərilməsini, onların xoşbəxtliyi naminə öz şəxsi mənafeyini zəruri olduqda qurban verməyi özündə ehtiva edən əxlaqi prinsipdir. Eqoizmin əksi olan altruizmin əsas əxlaqi meyarını başqa adamın və ya sosial birliyin maraqları təşkil edir. Bu mənada humanist prinsiplərdən olan könüllülük əxlaqi norma və dəyərdir. Xüsusi qeyd etmək lazımdır ki, qloballaşma dövründə Qərbin dünyada təbliğ etdiyi prinsiplərin təsiri ilə ənənəvi dəyərlərin alt-üst olduğu yeni mühitdə könüllülük olduqca böyük mənəvi və fəlsəfi əhəmiyyət daşıyır.

Müasir dövrdə könüllülüyün mahiyyətində bir sıra məzmun dəyişiklikləri baş vermişdir. Birincisi, könüllülüyə artıq bir çox hallarda dövlətin gənclər siyasətinin tərkib hissəsi kimi baxılır. Bu yanaşma isə könüllülər seqmentinə bütünlükdə münasibətdə fərqli alət və resursların tətbiqini zəruri edir. İkincisi, könüllülüklə xeyriyyəçilik arasında bir-birindən kifayət qədər seçilən fərq yaranmışdır. Könüllülük maddi cəhətdən əvəzi ödənilməyən sahə olsa da, yekun nəticədə fərdi baxımdan müəyyən hədəflərə çatmaq üçün resurs kimi nəzərdə tutulur. Üçüncüsü, əvvəllər yalnız ictimai fəaliyyət kimi baxılan könüllülük müasir yanaşmada ictimai fəaliyyətin xüsusi növü olaraq özündə sosial əlaqələrin kompleksini də əks etdirir. Dördüncüsü, əvvəlki yanaşmadan fərqli olaraq könüllülükdə kollektiv aspektlə yanaşı fərdin dominantlığı da ön plana çıxmışdır. Könüllülük kollektiv işləmək bacarığı və eyni zamanda şəxsi inkişaf konseptidir. Bu mənada könüllü və könüllülər hərəkatı arasında incə də olsa fərqli meyillər yaranmışdır.

Yeni anlamda könüllülüyü insanları vahid niyyət ətrafında birləşdirən, vətəndaş, cəmiyyət və dövlətin birgə fəaliyyətinin uğurlu formatı kimi qiymətləndirmək olar. Könüllülük həm də öz xalqına və dövlətinə bağlılıq və xidmət örnəyidir. Könüllülüyün bir sosial fəaliyyət sahəsinə çevrilməsi isə İkinci Dünya müharibəsindən sonrakı dövrə təsadüf edir. Könüllülük həmrəylik və sosial məsuliyyəti özündə ehtiva etdirməklə gənclərin real həyata keçid mərhələsini əhatə edən kütləvi təşkilatlanma formasıdır. Bu sosial fəaliyyət karyera, təcrübə mübadiləsi, asudə vaxtın səmərəli keçirilməsi, sosial, ekoloji və digər sahələrdə problemlərin həllinə dəstək kimi geniş profilli əhatə dairəsinə malikdir.

Müasir dövrdə bu hərəkat bir çox aspektləri əhatə edir. Bu mənada ictimai nəzarətin həyata keçirilməsində könüllülərin rolu qloballaşma dövrünün əsas çağırışıdır. Planetimizin qlobal problemlərinə dünyanın müxtəlif ölkələrindən könüllülərin vahid prizmadan yanaşması isə bütün sərhədləri aşan, bəlkə də sərhədsiz adlandırıla biləcək yeni bir dövrün reallığıdır. Misal üçün, qlobal istiləşməyə və ya digər ekoloji problemlərə münasibətdə könüllülərin dünya miqyasında yanaşması heç bir dövlətin sərhədləri ilə məhdudlaşmır və ya uyğunsuzluq yaratmır. Bu mənada könüllülük üçüncü minillikdə qlobal fenomenə çevrilmişdir.

### Könüllülük gənclər siyasətinin seqmenti kimi

Müxtəlif ölkələrin təcrübəsində könüllülər hərəkatından insanların vətəndaşlıq mövqeyinin nümayiş etdirilməsi baxımından istifadə olunur. Könüllülük sağlam vətəndaşlıq mövqeyinin formalaşmasında mühüm vasitələrdən biri hesab olunur. Əsas mahiyyəti cəmiyyətə faydalılıq olmaq şərtilə ictimai nəzarət, mötəbər tədbirlərin keçirilməsinə dəstək, qlobal mahiyyət daşıyan problemlərin həllinə diqqət çəkmək və digər ictimai-sosial proseslər könüllülük hərəkatının əhatə dairəsinə daxildir. Bir sıra ölkələrdə isə könüllülük hərəkatı dövlətin gənclər siyasətinin prioritet istiqaməti, gənclər sektorunda əsas hədəflərə çatmaq üçün mühüm vasitə kimi nəzərdə tutulur.

Heç şübhəsiz ki, könüllülük gənc nəslə gələcək həyatı müəyyənləşdirə bilmək üçün bir yol və ya fürsətdir. Könüllü olmaq biliklərin bacarığa çevrilməsi üçün əlverişli platformadır. Könüllülük isə kreativlik, innovatorluq, yenilik, təşəbbüskarlıq üçün meydandır. Könüllülük cəmiyyəti dəyişdirməyə, vətəndaş cəmiyyətinin formalaşmasına mühüm töhfə verməyə şərait yaradan bir hərəkat, cəmiyyəti irəli aparmağa hədəflənmiş bir fəaliyyət sahəsidir. Dövlətin könüllülük hərəkatına gənclər siyasəti olaraq dəstəyi isə hər bir gəncin şəxsi planda və ya kollektiv olaraq özünü göstərməsinə şərait yaradır. Şəxsi inkişafa paralel olaraq komanda quruculuğunda iştirak sosial idarəetmənin inkişafına töhfə verir.

Müasir dövrdə fərdi qabiliyyətlərin, bacarıq və keyfiyyətlərin ön plana çəkilməsi baxımından da könüllülük əhəmiyyətlidir. Bu mənada dövlət qurumlarının hər bir gəncə fərdi yanaşması, stimullaşdırıcı təsiri könüllülük üçün yeni əhatə dairəsi, yeni imkanlar yaradır. Cəmiyyətin ən fəal hissəsini təmsil edən gənclər üçün könüllülük cəmiyyətə faydalı olmaq istəyi və təcrübə qazanmaq üçün məktəbdir.

İnformasiya əsri olan yaşadığımız dövrdə cəmiyyət yeni sosial problemlərlə qarşılaşır. Cəmiyyətin bu cür problemlərindən biri də xüsusən gənclər arasında özünütəcrid və ya özünəqapanmadır. İnformasiya texnologiyalarının həyatın bütün sahələrinə daxil olan inkişaf etmiş ölkələrdə gənclər arasında bu meyil özünü daha qabarıq göstərir. Özünütəcrid isə narkomaniya, alkoqolizm kimi bəşəri bəlalara aparan yollardan biridir. Statistik rəqəmlər təsdiq edir ki, könüllülər hərəkatında təmsil olunan gənclər arasında bu cür neqativ proseslər üçün münbit şərait yoxdur. Bu baxımdan müşahidələr göstərir ki, könüllülük fəaliyyəti özünəqapanmadan uzaq olmağa kömək edir, psixoloji cəhətdən normal yeni nəslin yetişməsinə öz müsbət təsirini göstərir.

Bu bir reallıqdır ki, qloballaşmanın gətirdiyi mənfi meyillər arasında cəmiyyətdə, xüsusən də gənclər arasında mənəvi dəyərlərin aşınması da xüsusi yer tutur. Belə bir dövrdə könüllülük mənəvi dəyərlərə bağlılıq baxımından mühüm platformadır. Könüllü olmaq mənəvi dəyərlərin daşıyıcısı olmaqdır və bir çox ölkələrdə könüllü gənclər ölkənin tarixinin, mənəvi dəyərlərinin, mədəni irsinin və sərvətinin könüllü qoruyucusu olaraq öz töhfələrini verirlər.

Şəxsiyyətin formalaşması mərhələsində olan yeni nəslin vətəndaşlıq keyfiyyətlərinin tərbiyəsi yolunda könüllülük fəaliyyəti və ya hərəkatı mühüm rol oynayır. Qloballaşma proseslərinin təsiri altında yetişməkdə olan “Z nəsil” uşaqlar olduqca indifferent xüsusiyyətlərə malikdirlər. Bu, ümumilikdə müasir dövrümüzdə cəmiyyətin qarşısında dayanan həm sosial, həm də ictimai problemdir. Məhz belə bir mühitdə könüllülük “Z nəsil” yeniyetmə və gənclər üçün ənənəvi olmayan doqmalardan kənara çıxmaq üçün əlverişli imkan, həm də maraq doğuran çağırışdır. Mədəniyyətin kütləvi xarakteri, informasiya texnologiyalarının yaratdığı yeknəsək mühit fərdin şəxsi vətəndaş mövqeyinin ortaya çıxarılmasına kölgə salır. Beynəlxalq təcrübə göstərir ki, bu baxımdan məhz könüllülük hərəkatı gənc nəslin sağlam vətəndaşlıq mövqeyinin formalaşmasında mühüm rol oynayır.

Beləliklə, qeyd etmək olar ki, könüllülük hərəkatı və platforması gənclər siyasətinin bir sıra istiqamətlərdə hədəflərə nail olunmasına öz töhfəsini verir:

- *Uğurlu karyera yolu, fərdi inkişaf;*
- *Komandada işləmək bacarığı;*
- *Təcrübə məktəbi;*
- *Sosiallaşma və sağlam həyat tərzi;*
- *Mənəvi dəyərlərin qorunması və təbliği;*
- *Beynəlxalq təşəbbüslərə dəstək;*
- *Mötəbər tədbirlərin təşkilində iştirak və s.*

### Könüllülər hərəkatı iqtisadi faktor kimi

Artıq beynəlxalq təcrübədə könüllülər hərəkatına yanaşmada məzmun dəyişikliyi özünü dövlət siyasətində də göstərir. Xüsusən də iqtisadi inkişaf etmiş ölkələrdə könüllülərə, təkcə gənclər siyasəti çərçivəsində deyil, həm də sosial, səhiyyə, məşğulluq və hətta iqtisadi siyasətin tərkib hissəsi kimi baxırlar. ABŞ-ın məşhur Con Hopkins Universitetinin tədqiqatlarına əsasən, təkcə dünyanın 36 ölkəsində könüllülərin sayı 130 milyon nəfəri keçib. Könüllülərin iş saatı, faydalı iş əmsalı və yaratdığı məcmu dəyər iqtisadi hesablamalara daxil edilib və hər bir ölkə üzrə müvafiq statistik yanaşmalar formalaşdırılmağa başlanmışdır.

Rusiyalı ekspert Maksim Boçanovun qiymətləndirməsinə görə, könüllülərin işi müxtəlif ölkələrdə ÜDM-yə 4-8 faiz səviyyəsində töhfə verir. Misal üçün, Norveçdə ÜDM-in 6 faizi könüllülərin payına düşür. Kanadada əhalinin 27 faizi könüllü fəaliyyətlə məşğuldur və onların fəaliyyəti dövlət büdcəsində 17 milyard ABŞ dolları səviyyəsində büdcə xərclərinin qənaətinə səbəb olur. ABŞ-da əhalinin 50 faizdən çoxu könüllülər fəaliyyətində iştirak edir və artıq “virtual könüllü” adlı innovativ təşəbbüs həyata keçirilir. ABŞ-da könüllülük təcrübəsi iş təcrübəsinə bərabər olan fəaliyyət növü kimi qəbul edilir.

Ümumiyyətlə, inkişaf etmiş ölkələrin əksəriyyətində əhalinin könüllülük hərəkatında iştiraketmə səviyyəsinin statistikası aparılır. Misal üçün, Avropa İttifaqı ölkələrində əhalinin (18 yaşdan yuxarı) 22-25 faizi könüllülük fəaliyyətinə cəlb olunub. “Eurobarometer”in keçirdiyi sorğuya əsasən, hər 10 avropalıdan 3-ü könüllülük fəaliyyəti ilə məşğul olduğunu bildirib. Almaniya və Niderland isə ən inkişaf etmiş könüllülük təcrübəsi olan ölkələrdir.

Beynəlxalq təcrübədə könüllülük fəaliyyətinin iqtisadi proseslərdə yeri və rolu ilə bağlı bir sıra iqtisadi yanaşmalar tətbiq olunur. Belə ki, könüllülərin ölkə əhalisi, o cümlədən aktiv əmək resurslarına nisbətdə xüsusi çəkisi, könüllülük fəaliyyətinin ÜDM-yə verdiyi töhfə və faiz nisbəti, əməyi ödənilən fəaliyyətdə könüllü işin mümkün nisbəti iqtisadi seqment olaraq hesablanır və statistikası aparılır.

### “Könüllülər ili” təcrübəsi

Məlum olduğu kimi, BMT 1970-ci illərdən başlayaraq ayrıca proqram üzrə könüllülük sahəsində fəaliyyətini əlaqələndirməyə başlamışdır. BMT-nin İnkişaf Proqramının koordinasiyasında hazırda 80-dən çox ölkədə aktiv fəaliyyət göstərən Birləşmiş Millətlər Könüllüləri Proqramı (United Nations Volunteers Programme) könüllülərin qlobal məsələlərə dəstək olmasına hədəflənmiş fəaliyyət göstərir.

BMT könüllülük fəaliyyətini təşviq etmək üçün bir sıra əlamətdar tarixləri xüsusi keçirməklə bağlı ənənənin əsasını qoymuşdur. Belə ki, BMT Baş Assambleyasının 1985-ci ildə qəbul etdiyi qətnaməyə əsasən 5 dekabr “İqtisadi və Sosial İnkişaf üçün Beynəlxalq Könüllülər Günü” elan olunmuşdur. Baş Assambleya 20 noyabr 1997-ci ildə 2001-ci ilin “Beynəlxalq Könüllülər ili” elan olunması ilə əlaqədar qətnamə qəbul etmişdir. Təcrübə göstərir ki, bu qərarın təsiri ilə 2001-ci ildə beynəlxalq miqyasda könüllülüyün təbliği, iş yerlərinə əlçatanlığın asanlaşdırılması, beynəlxalq sosial şəbəkənin yaradılması istiqamətində işlər xüsusi vüsət almışdır. Hazırda icra olunmaqda olan BMT Könüllülər Proqramının 2016-2030-cu illər Tədbirlər Planı isə BMT-nin Davamlı İnkişaf Məqsədlərinə istiqamətlənmişdir.

Avropa İttifaqı da “Könüllülər ili” ənənəsini davam etdirmişdir. Avropa Komissiyasının qərarı ilə 2011-ci il “Avropa Könüllülük İli” elan olunmuşdur. Avropa Komissiyasının yaratdığı Avropa Könüllü Xidməti könüllülük fəaliyyətinin təşkili istiqamətində üçbucaqlı mexanizm qurmuşdur: göndərən assosiasiya və təşkilatlar, qəbul edən təşkilatlar və əlaqələndirici xidmət. Bu mexanizm Avropa Könüllü Xidmətinin əmək bazarında özünəməxsus iştirakında və mövqeyinin formalaşmasında mühüm əhəmiyyət daşıyır.

Rusiyada 2018-ci il “Könüllülər İli” elan olunmuşdu. İlin yekunları ilə bağlı qiymətləndirmələrə əsasən, ölkə ərazisində könüllülərin sayı iki dəfə artmış və könüllülük konkret tarixə bağlı olmayan daimi təşəbbüsə çevrilmişdir. Rusiya Federasiyasının regionlarında könüllülüyə dəstək resurs mərkəzləri yaradılmışdır. Könüllü siyasətin davamlılığını təmin etmək məqsədilə hər il “Xoş əməllər regionu” adlı regional layihə müsabiqəsi keçirilir və qalib regionlara büdcədən subsidiya ayrılır. “Könüllülərin kütləvi tədbirlərə hazırlığı və təlimi” ilə bağlı sistemli yanaşma yaranmışdır. Proseslərin davamlı xarakter daşıması dövlət siyasətinin prioritetlərindən hesab olunur və artıq 2025-ci ilədək dövrü əhatə edən Könüllülüyün İnkişaf Konsepsiyası təsdiq olunmuşdur. Könüllülər hərəkatının “Sosial aktivlik” milli layihəsi çərçivəsində aparılan işlər nəticəsində daha da genişlənməsi, ölkə əhalisinin 20 faizinin könüllük fəaliyyətinə cəlb olunması nəzərdə tutulmuşdur.

Qonşu ölkələr arasında Qazaxıstanda da könüllülər hərəkatına gənclər siyasətinin aparıcı istiqamətlərindən biri kimi baxılır. Milli Könüllülər Şəbəkəsinin hesablamalarına görə, hər səkkiz Qazaxıstan vətəndaşından biri bu və ya digər dərəcədə könüllü fəaliyyətə cəlb olunmuşdur. Qazaxıstanda da 2020-ci il “Könüllülər İli” elan edilmişdir. “Biz birlikdəyik” şüarı ilə nəzərdə tutulan Tədbirlər Planı yeddi mühüm istiqaməti nəzərdə tutmuşdur. Birinci istiqamət könüllülük fəaliyyəti üçün əlverişli mühitin yaradılması - normativ-hüquqi bazanın təkmilləşdirilməsi, milli metodikanın hazırlanması ilə bağlıdır. İkinci istiqamət könüllülük fəaliyyəti ilə bağlı infrastrukturun inkişafı və iştirakçıların potensialının inkişafını əhatə edir. Könüllü proqram və layihələrinin monitorinqi və koordinasiyası üzrə ofisin yaradılması da nəzərdə tutulur. Üçüncü istiqamət vətəndaşların könüllülük fəaliyyətində iştirak imkanlarının genişləndirilməsinə yönəlmişdir və dövlət qurumları tərəfindən müəyyən sosial təşviq mexanizmlərinin tətbiqi təklif edilmişdir. Dördüncü istiqamət korporativ könüllü fəaliyyətin inkişafıdır və bununla bağlı ən uğurlu beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi gözlənilir. Beşinci istiqamət olaraq bu sahədə beynəlxalq əməkdaşlıqdır ki, Qazaxıstan könüllülüklə bağlı daha çox Rusiya və BMT şəbəkəsinə üstünlük verir. Altıncı istiqamət könüllülüyün populyarlaşması istiqamətində tədbirləri əhatə edir. Xüsusi media planlarının, televiziya verilişlərinin, müsabiqələrin, videoroliklərin, kütləvi informasiya vasitələrinin xətti ilə fərdi və kollektiv uğurların təbliğinin geniş auditoriyaya çatdırılması hədəflərin davamlılığına yönəlmişdir. Bu çərçivədə artıq vahid könüllü platforması (https://qazvolunteer.kz) yaradılmışdır. Nəhayət, sonuncu istiqamət Davamlı İnkişaf Məqsədlərinə hədəflənmiş könüllülüyün təşviqidir. Bu məqsədlə təhsil, səhiyyə, gənclər, ekologiya, mədəni irsin qorunması, sosial xidmət, yoxsulluğun azaldılması sahələrində yeddi layihənin həyata keçirilməsi nəzərdə tutulur.

Ümumilikdə, beynəlxalq təcrübədə “Könüllülər ili” könüllülük hərəkatının təbliği və müxtəlif sahələrdə dövlət siyasətinin həyata keçirilməsində mühüm vasitə olaraq uğurlu bir model kimi özünü göstərir.

Azərbaycanda müasir anlamda könüllülər hərəkatı gənclər siyasətinin prioritet istiqamətlərindən biri olaraq nəzərdən keçirilir. Hələ 1998-ci ildə Gənclər, İdman və Turizm Nazirliyi, BMT İnkişaf Proqramı və BMT Könüllüləri Proqramının həyata keçirdiyi birgə layihə könüllülük hərəkatı ilə bağlı ilkin təşəbbüslərdən hesab olunur. Həmin proqram əsas götürülərək o dövrdən başlayaraq ölkəmizdə könüllülük prinsiplərinin geniş təbliğinə başlanılmışdır. 2009-cu ildə “Könüllü fəaliyyət haqqında” Qanun qəbul olunmuş və normativ-hüquqi əsaslar yaradılmışdır. Lakin könüllülər hərəkatının yeni mərhələyə keçidini 2013-cü ildə ASAN Könüllüləri Təşkilatı yaradılması ilə əlaqələndirmək doğru olar. Bu mərhələdə gənclərin yeni həyata, uğurlu karyeraya və konkret peşəyə yiyələnməsi, mötəbər tədbirlərə dəstək istiqamətində çox böyük inkişaf yolu keçilmişdir.

2019-cu ildə 3 minə yaxın gəncin iştirakı ilə Könüllülərin II Həmrəylik Forumunun keçirilməsi könüllülər hərəkatının yeni vüsət almasında, könüllülər təşkilatlarının cəmiyyətin həyatında daha fəal iştirakında təkan olmuşdur. Hazırda ölkəmizdə dövlətin ciddi dəstəyi və cəmiyyətin sosial sifarişi nəticəsində yaranmış “ASAN könüllüləri”, “Regional İnkişaf” İctimai Birliyi, “Bir” Tələbə könüllüləri, “Könüllü DOST”, “Aqrar İnkişaf könüllüləri” və digər könüllü hərəkatları gəncliyin avanqardına çevrilib. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2020-ci ilin Azərbaycanda “Könüllülər İli” elan edilməsi barədə Sərəncamı üçüncü minillikdə gənclərin müxtəlif sahələrdə öz potensialını göstərməsinə, sosial məsuliyyət və ictimai nəzarətlə bağlı dövlət siyasətinin həyata keçirilməsinə meydan açan mühüm əlamətdar hadisədir.

***Ərəstü HƏBİBBƏYLİ,***
***iqtisadiyyat üzrə fəlsəfə doktoru***

# İlham Əliyevin islahatları Davosda yüksək qiymətləndirildi

Əvvəli 1-ci səh.

### Azərbaycanın təqdimatına və yeni əlaqələrinə xidmət edən görüşlər

Prezident İlham Əliyevin “Azərbaycanın vahid və dayanıqlı dünyada rolu” sərlövhəli məqaləsində deyilir: “Dünya İqtisadi Forumu Azərbaycan reallıqlarını beynəlxalq ictimaiyyətə təqdim etmək üçün gözəl bir platforma olmaqla yanaşı, dünyada baş verən iqtisadi meyillər haqqında dolğun məlumat əldə etməyə imkan yaradır. Bu, bizə islahatları davamlı şəkildə aparmağa, ölkəyə xarici investisiyaları cəlb etməyə imkan verir”.

Azərbaycan Prezidentinin forum çərçivəsində keçirdiyi görüşlər, iştirak etdiyi panel iclasları ölkəmizin təqdimatı, Azərbaycana xarici sərmayələrin cəlb edilməsi, yeni siyasi və iqtisadi əməkdaşlığın qurulması baxımından mühüm əhəmiyyət kəsb edir. Davosa gələn yüzlərlə iş adamı Azərbaycan barədə ən ali səviyyədə təqdimatı görür və bununla ölkəmiz haqda müsbət fikir formalaşır, ölkəyə sərmayə cəlbi stimullaşdırılır. Hər il Davosda keçirilən görüşlərin ardından yüksək texnologiyalara sahib olan şirkətlər Azərbaycana gəlir və sərmayə yatırırlar. Bu baxımdan Davos Azərbaycan məhsullarının tanıdılması və ixrac imkanlarımızın artması üçün də əlverişli platformadır.

İlham Əliyevin Davosda bu il 3 dövlətin prezidenti, 3 dövlətin baş naziri, 3 beynəlxalq təşkilatın və dünyanın tanınmış 11 şirkətinin rəhbərləri ilə görüşləri yüksək səmərəliliyi ilə diqqəti cəlb edir.

### “Procter and Gamble Europe” regional mərkəzini Bakıda yaradacaq

Prezident İlham Əliyevin həyata keçirdiyi davamlı iqtisadi islahatlar, biznes mühitinin daha da yaxşılaşdırılması, biznesə başlama prosedurunun sadələşdirilməsi son dövrlərdə xüsusən qeyri-neft sektorunun daha sürətli inkişafına böyük təkan verib. Azərbaycanda baş verən bu cür keyfiyyət dəyişiklikləri beynəlxalq iqtisadi dairələrin də diqqət mərkəzindədir. Təsadüfi deyil ki, Davos İqtisadi Forumunun açıqladığı “Qlobal Rəqabətlilik Hesabatı”nda Azərbaycan “Biznesə başlama üçün tələb olunan günlərin sayı” üzrə 8-ci yerdə qərar tutub.

Təbii ki, Azərbaycanda özəl sektorun fəaliyyətinə yaradılan imkanlar xarici biznes dairələrinin də diqqət mərkəzindədir. Elə buna görə də fəaliyyətini Orta Asiya və Uzaq Şərqə doğru genişləndirmək niyyətində olan tanınmış “Procter and Gamble Europe” şirkəti regional mərkəzini məhz Bakıda yaradacaq. Bu barədə şirkətin prezidenti Loik Tassel Davosda Prezident İlham Əliyevlə görüşdə məlumat verib. O, son illərdə Azərbaycanda həyata keçirilən islahatları, xüsusilə biznes sahəsində mühasibatlılığın və şəffaflığın artırılması, vergi və gömrük sahələrində islahatların ümumi rəqabət mühitinə verdiyi müsbət töhfəni yüksək qiymətləndirib. Azərbaycanın bugünkü biznes mühitinin bütün xarici investorların öz fəaliyyətlərini genişləndirmələri üçün çox əlverişli imkan yaratdığını deyən Loik Tassel bildirib ki, bütün bunlar “Procter and Gamble Europe” şirkətinin də ölkəmizdəki fəaliyyətinin inkişafı üçün çox önəmli amildir.

### “Carlsberg” şirkəti Azərbaycana sərmayə qoyuluşunu artıracaq

Azərbaycanda həyata keçirilən iqtisadi islahatları diqqətlə izləyən xarici şirkətlərdən biri də “Carlsberg Group”dur. Təsadüfi deyil ki, şirkətin baş icraçı direktoru Cees't Hart Prezident İlham Əliyevlə görüşdə Azərbaycanda son illərdə aparılan uğurlu islahatlardan, əlverişli biznes və investisiya şəraitindən məmnunluğunu ifadə etdi, bu tədbirlərin biznes və rəqabət mühitinin sağlamlaşdırılması, həmçinin şəffaflığın artırılması üçün geniş imkanlar yaratdığını vurğuladı. Baş icraçı direktor “Carlsberg Group” olaraq xarici investor kimi bu islahatlara hər zaman dəstək verdiklərini və bu dəstəyin yenə də davam etdiriləcəyini bildirdi. Cees't Hart bu imkanlardan faydalanaraq Azərbaycana investisiya qoyuluşunu artırmaq niyyətində olduqlarını da qeyd etdi. O, həmçinin aidiyyəti hökumət qurumları ilə şəffaflığın, hesabatlılığın və mühasibatlılığın daha da yüksək səviyyəyə qalxması üçün əməkdaşlıq etdiklərini söylədi.

Bu ildən başlayaraq “Carlsberg Group” şirkəti kənd təsərrüfatı sektoruna da investisiya qoyuluşunu həyata keçirəcək və bu istiqamətdə artıq pilot layihələrin icrasına başlanılıb.

### AYİB islahatları təqdir edir

Azərbaycanda son illərdə aparılan islahatların artıq müsbət nəticələr verməsi, xüsusilə şəffaflığın artırılması beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir. Prezident İlham Əliyevin Davosda Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Suma Çakrabarti ilə görüşündə bu barədə söz açıldı. Görüşdə Azərbaycanda mövcud investisiya mühitinin son dövrlərdə daha da yaxşılaşdığı məmnunluqla vurğulandı, vergi və gömrük sahələrində aparılan uğurlu islahatlar, inzibatçılığın asanlaşması, “ASAN xidmət”in və DOST agentliyinin fəaliyyəti, dövlət tərəfindən göstərilən xidmətlərin rəqəmsallaşdırılması prosesi xüsusi qeyd edildi.

Söhbət zamanı Avropa Yenidənqurma və İnkişaf Bankının ölkəmizdə həyata keçirilən layihələri və prioritet sahələrin müəyyənləşdirilməsi barədə fikir mübadiləsi aparıldı. Bankın Azərbaycanda mövcud əlverişli investisiya mühitindən yararlanaraq fəaliyyətini daha da genişləndirmək üçün böyük imkanlarının olduğu bildirildi.

Bu il 50-ci dəfə keçirilən Davos İqtisadi Forumu Azərbaycan üçün uğurlu oldu. Çünki toplantı Azərbaycanın dünya birliyindəki və regiondakı yerini və mühüm rolunu bir daha beynəlxalq ictimaiyyətə təqdim etdi. Dünya bir daha gördü ki, sabit ölkə kimi Azərbaycanın inkişafı davamlıdır. Ən əsası Azərbaycan hakimiyyəti böyük imkanlar yaradan və hazırda həyata keçirilən geniş islahatlar gündəliyinə malikdir.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

# Dövlət Komitəsinin sədri “GəncLİK” proqramının iştirakçıları ilə görüşüb

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri (DQİDK) Mübariz Qurbanlı “GəncLİK” (Gənc Liderlərin İnkişafı Konsepsiyası) proqramının iştirakçıları ilə görüşüb.

Dövlət Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, proqram iştirakçılarını salamlayan Mübariz Qurbanlı Prezident İlham Əliyev tərəfindən aparılan gənclər siyasətinin önəminə toxunaraq ölkəmizdə gənclərin təhsili, işlə təmin olunması, inkişafı, dünyaya inteqrasiya etməsi, eyni zamanda milli dəyərlərə malik vətəndaş kimi tərbiyə almaları istiqamətində mühüm işlərin görüldüyünü bildirib.

Daha sonra DQİDK sədri Komitənin fəaliyyət istiqamətləri, Azərbaycanda mövcud olan dini durum, dinlərin mahiyyəti və prinsipləri haqqında ətraflı məlumat verib. Bildirib ki, dünyəvi dövlət olan Azərbaycanda dövlətdin münasibətləri qanunla tənzimlənir. Ölkəmizdə bütün etnik qrupların, dini konfessiya nümayəndələrinin öz dillərini, dinlərini, mədəniyyət və adət-ənənələrini qoruyub saxlaması, inkişaf etdirməsi üçün hər cür şərait mövcuddur.

Eyni zamanda iştirakçılara Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə məlumat verən Mübariz Qurbanlı Azərbaycan həqiqətlərinin təbliğində gənclərin üzərinə böyük məsuliyyətin, vəzifənin düşdüyünü vurğulayıb və hər bir gəncin beynəlxalq miqyasda, xüsusilə sosial şəbəkələrin imkanlarından istifadə etməklə bu prosesdə fəal iştirakının vacibliyini diqqətə çatdırıb.

Gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayan DQİDK sədri sonda onları maraqlandıran sualları cavablandırıb.

Qeyd edək ki, Gənc Liderlərin İnkişafı Konsepsiyası proqramı Azərbaycan Respublikasının Gənclər Fondu və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin birgə təşkilatçılığı ilə reallaşdırılır.

# Ömrünüzün “üçüncü baharı” fərəhlə keçsin

BMT-nin Əhali Fondu (BMTƏF) Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə “Bütün yaşlar üçün cəmiyyətin qurulması: fəal yaşlanma yolu ilə Azərbaycanda yaşlıların rifahının təşviq edilməsi” layihəsi çərçivəsində tədbir keçiriblər.

Tədbirdə layihənin yaşlıların rifahına, daha sağlam və müstəqil həyat sürmələrinə, fəal iştirakçılıq imkanlarına malik olmalarına dəstək məqsədi daşıdığı vurğulanıb. Bu layihə çərçivəsində əhalinin yaşlı təbəqələri ilə mütəmadi məlumatlandırma görüşləri təşkil olunur və onlarda fəal iştirakçılığa maraq artırılır.

Sözügedən tədbirdə layihənin icraedici tərəfdaşı “Üçüncü bahar” İB-nin təmsilçisi Nərmin Qəniyeva, BMTƏF-in layihə meneceri Nailə Cəfərova, təlimçi Elçin Əzimli çıxış ediblər. E.Əzimli özünün “Dan ulduzu” kitabına əsaslanaraq qeyd edib ki, emosional intellekti inkişaf etdirməklə fərdlərarası münasibətlərdə özünəinamın gücləndirilməsinə nail olmaq mümkündür.

Tədbir emosional intellektə dair praktik məşğələlərlə davam etdirilib. Müzakirələrdə dinləyicilər fikir və rəylərini bildiriblər.

Qeyd edək ki, BMTƏF və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həyata keçirilən bu layihə pensiya yaşına çatmış şəxslərin ömürlərinin sonrakı hissəsində də fəal və sağlam həyat tərzi keçirməsini təmin etmək məqsədilə müxtəlif dəstəkləyici və inklüziv tədbir və proqramların tətbiqini nəzərdə tutan innovativ sosial təşəbbüsdür. Layihə çərçivəsində ölkənin ilk fəal yaşlanma indeksinin hazırlanması, yaşlı əhali ilə ölkə boyu ictimai görüşlərin keçirilməsi, fəal yaşlanma ilə bağlı maarifləndirmə və təşviqatın aparılması, ahıllar üçün nəzərdə tutulan bir sıra fəaliyyətlərin həyata keçirilməsi də nəzərdə tutulur.

2019-2021-ci illəri əhatə edən layihə “ASAN” xidmət, Dövlət Statistika Komitəsi, DOST Agentliyi və “Üçüncü Bahar” İctimai Birliyi ilə əməkdaşlıq şəraitində icra edilir.

***Nəzakət ƏHMƏDOVA***

9 fevral Milli Məclisə seçkilər günüdür

# Lənkəran parlament seçkilərinə ciddi hazırlaşır

*Əvvəli 1-ci səh.*

74 saylı Lənkəran kənd DSK-nın sədri Əlövsət Rufiyev söhbət zamanı dedi ki, dairənin əhatə etdiyi 39 seçki məntəqəsinin hər birində seçkilərin yüksək səviyyədə keçirilməsi üçün lazımi şərait yaradılıb. Hazırlıq işləri MSK-nın Təqvim Planına uyğun aparılıb.

Öyrəndik ki, bu dairədə 11 nəfərin namizədliyi qeydə alınıb. Hazırda onlar seçkiqabağı təşviqat işi aparırlar. Təşviqat fevralın 8-dək davam edəcək. Seçicilərin siyahısı dəqiqləşdirilərək məntəqələrin müvafiq yerlərində asılıb. 5 məntəqədə veb-kameralar quraşdırılıb. Seçicilərin arasında yaşlı adamlarla bərabər ilk dəfə səs verən gənclər də var. Ən yaşlı seçici isə Viravul kəndindən olan 1900-cü il təvəllüdlü Xəlilova Zəhra Rza qızıdır.



75 saylı Lənkəran-Masallı DSK-nın sədri Cəmil Hüseynov da hazırlıq işlərinin seçki qanunvericiliyinin tələbləri əsasında həyata keçirildiyini söylədi. O dedi ki, Liman şəhərində yerləşən dairə seçki komissiyası 41 məntəqəni əhatə edir. Bu məntəqələrin 29-u Lənkəran rayonunda, 12-si Masallı rayonu ərazisində fəaliyyət göstərir. Məntəqələrin hamısı texniki avadanlıqla və əyani vəsaitlərlə təmin edilib. Seçkilərin gedişini izləmək üçün Lənkəranda 3, Masallıda 2 veb-kamera quraşdırılıb. Seçki günü DSK üzrə 38 min 746 nəfər seçici səs verəcək. Ən qocaman seçicinin 115 yaşı var. Bu, Boladi kəndində yaşayan Axundova Şahbikə Fərhad qızıdır. O, 13 saylı məntəqədə səs verəcəkdir. Dairə üzrə 7 namizəd parlamentə seçilmək uğrunda mübarizə aparır. Onların hər birinə bərabər şərait yaradılmışdır.

76 saylı Lənkəran-Astara DSK-nın sədri Məzahir Əliyev isə dedi ki, dairə üzrə 45 seçki məntəqəsi fəaliyyət göstərir. Onların 20-si Lənkəran, 25-i Astara rayonu ərazisindədir. Məntəqələr bütün texniki avadanlıqlar və digər vasitələrlə təmin olunub. DSK üzrə 38 min 615 seçici var ki, onların da 41 nəfəri ilk dəfə səs verənlərdir. Yaşı 80-dən yuxarı olan seçicilərin sayı 956 nəfərdir. Dairə üzrə 8 nəfərin namizədliyi qeydə alınmışdır. Onlardan 1 nəfəri YAP, 1 nəfəri MDHP, 1 nəfəri ÜP tərəfindən irəli sürülüb. 5 nəfər isə namizədliyini özü irəli sürmüşdür. Dairədə 498 müşahidəçi qeydə alınmışdır. Bir sözlə, Lənkəran rayonunda da parlament seçkilərinin azad, şəffaf və demokratik şəraitdə keçməsi üçün lazımi tədbirlər görülmüş, seçicilərin öz namizədlərinə səs vermələri üçün hər cür şərait yaradılmışdır.

***Seyran CAVADOV, "Azərbaycan"***

# Sumqayıtda ilk dəfə səs verəcək gənclərlə görüş keçirilib

Sumqayıt şəhər Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə Sumqayıt Dövlət Texniki və Musiqi kolleclərində ilk dəfə səs verəcək gənclərlə görüş keçirilib.



Tədbirdə respublikada dövlət gənclər siyasətinin uğurla aparılmasından, Milli Məclisə keçirilən seçkilərdə gənclərin iştirakının əhəmiyyətindən danışılıb. Şəhər gənclər və idman baş idarəsinin gənclərlə iş sektorunun məsləhətçisi Pərvin Rəsulov ölkəmizdə həyata keçirilən gənclər siyasətinin ölkənin ümumi inkişafına verdiyi töhfədən söhbət açıb. Qeyd edilib ki, tədbirin keçirilməsində məqsəd "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının icrası, gənclər arasında seçkilərdə iştirakın təbliği, seçkilərdə ilk dəfə iştirak edən gənclərin seçki prosesi, iştirak hüququ, seçicilərin hüquq və vəzifələri, səsvermə proseduru barədə maarifləndirilməsidir.

İştirakçılara seçkilərdə iştirak hüququ, səsvermə proseduru barədə ətraflı məlumat verilmişdir.

Sonda gəncləri maraqlandıran suallar cavablandırılmış, onlara maarifləndirici bukletlər paylanmışdır.

***Akif ƏLİYEV, "Azərbaycan"***

# Ceyranbatan - Abşeron yarımadasının 70 yaşlı qəsəbəsi

**1976-cı ildən Ceyranbatan qəsəbəsinin sakiniyəm. İlk gündən qəsəbənin yaranma tarixi məni maraqlandırıb. 2000-ci ildən Ceyranbatan qəsəbə Ağsaqqallar Şurasının sədri seçiləndən sonra daha çox məlumat əldə etdim.**

Qəsəbənin tarixində və insanlarının taleyində bir neçə hadisə mühüm rol oynamışdır. Bunlardan birincisi 1939-cu ilin payızında Qusar, Quba, Xaçmaz, Qonaqkənd və Dəvəçi rayonları əhalisinin Samur-Dəvəçi kanalının çəkilməsi ilə əlaqədar sovet hökumətinə müraciətidir. İkinci əsas tarixi hadisə SSRİ Xalq Komissarları Sovetinin və Sov.İKP MK-nın 7 oktyabr 1939-cu il tarixli qərarıdır. Həmin qərarda kanalın tikintisi üçün tələb olunan vəsait və materialların ayrılmasına icazə verilib. Üçüncüsü isə çox qısa müddətdə ümumxalq tikintisinə çevrilən, 1940-cı ilin may ayında istismara verilən Samur-Dəvəçi kanalının açılışıdır. Qəsəbənin tarixində dördüncü tarixi hadisə həmin kanalın 1946-cı ildə layihəsinə yenidən baxılması və SSRİ Kənd Təsərrüfatı Xalq Komissarlığının Su təsərrüfatı Baş İdarəsi tərəfindən təsdiq olunmasıdır. Bu layihə əsasında 1947-ci ilin dekabr ayında SSRİ Nazirlər Soveti Samur-Dəvəçi kanalının Abşeron yarımadasına qədər uzadılmasına, su anbarının və nasos stansiyalarının tikilməsinə qərar vermişdir. Sonrakı mühüm hadisələr 1949-cu ildə Samur-Dəvəçi kanalının yenidən tikintisinə başlanması və 1954-cü ildə başa çatdırılmasıdır. Beləcə, ingilis mühəndisi Uilyam Lindleyin 1900-cü illərin əvvəllərində hazırladığı layihədə nəzərdə tutulan işlər təxminən yarım əsr sonra icra olundu.

Lakin illər ötdükcə Bakıətrafı qəsəbə və yeni yaşayış massivlərinin içməli su ilə tələbatının ödənilməsi yeni qurğunun icrasını zəruri edirdi. Odur ki, 2011-ci il sentyabrın 8-də Prezident İlham Əliyevin iştirakı ilə Ceyranbatan Su Təchizatı İdarəsinin ərazisində ultrasüzgəcli sutəmizləyici qurğunun təməlinin əsası qoyuldu. 2018-ci il oktyabrın 28-də kompleksin açılışı oldu. Dövlət başçısı cənab İlham Əliyev açılış mərasimində də iştirak etdi. Burada görülən işləri yüksək qiymətləndirərək demişdir: "Bu sutəmizləyici qurğular kompleksi dünyanın ən böyük təmizləyici infrastruktur obyektidir. Biz fəxr edirik ki, bu, Azərbaycanda, Bakıda yaradılıb. Bu kompleksdə ən müasir texnologiyalar tətbiq edilir, dünyanın ən böyük sutəmizləyici kompleksidir və Bakı şəhərinin, Abşeron rayonunun sakinlərinə xidmət edəcək. Bax, bu gün xəritədəki mənzərə onu göstərir ki, uzun illər içməli sudan korluq çəkən Bakı qəsəbələri sakinləri bundan sonra bu təmiz suyu alacaq. Bir daha qeyd etmək istəyirəm ki, bu, dünya standartlarına cavab verən içməli sudur".



## Qəsəbənin sosial-mədəni həyatında eyniadlı gölün əhəmiyyəti böyükdür

Onu da qeyd edək ki, Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksinin yaradılması layihəsi çərçivəsində ərazidə yaşıllaşdırma işləri görülüb, 150 minə yaxın ağac və kol əkilib.

O vaxtdan Sumqayıt şəhərinə, Abşeron, Xəzər, Sabunçu və Suraxanı rayonlarının əksər hissələrinə verilən su Ceyranbatanda emal olunur. Belə bir vəzifənin yerinə yetirilməsi istəyilə insanların buraya axını nəticəsində Ceyranbatan abad yaşayış məskəninə çevrilib.

Hazırda Ceyranbatan qəsəbəsinin 11 mindən çox sakini var. Onların 1500-ü qaçqın və məcburi köçkün soydaşımızdır. Qəsəbədə 2 tam orta məktəb, 2 uşaq bağçası, musiqi-incəsənət məktəbi, mədəniyyət mərkəzi, klub, həkim məntəqəsi, poçt-rabitə xidməti, kommunal sahələr üzrə müvafiq müəssisələr fəaliyyət göstərir.

2019-cu ilin iyulunda Abşeron RİH başçısı qəsəbəmizə gəlmişdi. Görüşdə 2020-ci ildə qəsəbəmizin 70 yaşının tamam olacağını dedim. O da cavabında dedi ki, Ceyranbatan qəsəbəsinin 70 illik yubileyini yüksək səviyyədə qeyd edəcəyik. Siz də qəsəbənizin tarixini əks etdirən "Ceyranbatan-70" kitabını hazırlayın.

Kitabı hazırlayarkən Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsü"nün siyahısında Ceyranbatan qəsəbəsinə aid bir obyektin də olmadığını gördüm. Həmçinin yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısına da nədənsə Ceyranbatandan bir abidə salınmayıb. Halbuki qəsəbəmizdə kifayət qədər nadir tarixi abidələr var. Bütün bunlar haqqında daha ətraflı məlumatı "Ceyranbatan-70" kitabında vermək qərarına gəlmişik.

Kitaba onun ilk sakinlərinin, qəsəbənin inkişafında misilsiz xidmətləri olan insanların - Oqtay Səlimovun, Əsgər Quliyevin, Yəhya Əhlimanovun, Ülkəralı Əkbərovun, Babaxan Nağıyevin və başqalarının adlarını daxil edəcəyik.

İnsan sağlamlığı üçün əsas şərt təmiz içməli sudur. Ceyranbatan qəsəbəsində görülmüş böyük işlər sayəsində Bakıda və Abşeron yarımadasında bu məsələ demək olar tamamilə həll edilib. Yaşayış massivinin özü isə inkişaf edərək şəhər tipli qəsəbəyə çevrilib.

***Sabir TAĞIYEV, Abşeron rayonu, Ceyranbatan qəsəbə Ağsaqqallar Şurasının sədri***

# «Qara şəhər»in ağ günləri

## "Ağ şəhər" paytaxtın inkişafının bariz nümunəsidir

**Bakının tarixi qədim olduğu qədər də maraqlıdır. Çünki burada yalnız əsrlərlə nəsillər görüşməyib, həm də sivilizasiyaların qovuşduğu bu məkan böyük inkişaf yolu keçib. Bu gün Bakı dünyanın ən müasir, inkişaf etmiş mədəniyyət mərkəzlərindən biridir. Şəhərin tarixini vərəqlədikcə ötən illər ərzində onun simasının daha çox hansı illərdə dəyişməsi göz önündə canlanır.**









"Qara qızıl"ın mənbəyi kimi tanınan Bakının inkişafı müəyyən tarixi dönəmlərə təsadüf edib. Əslində iyirminci yüzilliyin ortalarından paytaxt öz simasını dəyişməyə başlayıb. Şairlərin poeziyasında, bəstəkarların bəstəsində öz vəsfini tapıb.

Azərbaycan Prezidenti İlham Əliyev bu ilin əvvəllərində Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyevi qəbul edərkən bir daha paytaxtın simasının dəyişilməsində həyata keçirilən layihələr və qarşıda duran mühüm vəzifələr barədə fikrini bildirdi. Dövlət başçısı qeyd etdi ki, Bakı çar Rusiyası və sovet dövründə sənaye şəhəri kimi formalaşıb. Təbii ki, uzun illər sənayenin genişmiqyaslı inkişafı şəhərin ekoloji vəziyyətinə çox mənfi təsir göstərirdi: "... Bir neçə il bundan əvvəl mənim göstərişimlə Bakıda geniş yenidənqurma və abadlıq işlərinə start verildi. Bakının ekologiyasını böyük dərəcədə çirkləndirən yerlər və müəssisələr artıq ləğv olunur. Onların yerində müasir, şəhərsalma qaydalarına uyğun yeni ictimai zonalar yaradılır. Biz ilk növbədə Bibiheybət buxtasının yaşıllaşdırılması, neft gölməçələrinin qurudulması və təmizlənməsi məsələsinə diqqət yetirdik. Vaxtilə ekoloji fəlakət mənzərəsini əks etdirən Bibiheybət buxtası indi yaşıllıq, park zonasıdır. Orada idman şəhərciyi, o cümlədən Su İdmanı Sarayı, digər idman və istirahət infrastrukturlar yaradılıbdır..."

### Balaxanı zibilxanası, qara tüstü və...

Dövlət başçısının xüsusi vurğuladığı kimi, paytaxt ərazisində üfunət iyi verən, Bakının yeni siması ilə bir araya sığmayan yerlərdən biri də Balaxanı zibilxanası idi ki, şəhərin havasını çox ciddi şəkildə çirkləndirirdi. Onilliklər boyu Bakı və bakılılar, bu acı reallıqla üz-üzə qalmışdılar. Orada yandırılan zibilin tüstüsü bütünlüklə şəhərin səmasını qatı dumana - "qara bulud"a (zəhərə) bürüyürdü. Son illər həmin ərazi də təmizləndi, müasir standartlara uyğun zibilyandırma zavodu, poliqon tikildi. Xeyli müddətdir ki, orada məişət tullantılarının çeşidlənməsi prosesi gedir. İndi həmin ərazi ekoloji cəhətdən sağlamlaşdırılıb.

Uzun illər boyu Bakının ekologiyasını çirkləndirən Böyükşor gölünün təmizlənməsi də mühüm əhəmiyyət daşıyır. Balaxanıya bitişik həmin ərazi vaxtilə ekoloji fəlakət zonası adlandırılırdı. Sovetlərin dövründə oraya axıdılan kanalizasiyalar, həm də yeraltı lay sularından əmələ gəlmiş "göl" "açıq səma altında neft anbarı" kimi tanınırdı.

Bakıda uzun illər ərzində "Qara şəhər" kimi məşhur daha bir ərazi var idi. Paytaxtın mərkəzindən çox da uzaq olmayan bu məkandan keçəndə ya maşının pəncərələrini bağlamalı idin, ya da dəsmalla ağız-burnunu örtməliydin. Dövlət başçısının bu ərazinin də abadlaşdırlması və burada yeni bir şəhərin salınmas ilə bağlı verdiyi tövsiyə və tapşırıqlar reallaşdıqdan sonra "Qara şəhər"dən əsər-əlamət belə qalmadı: "...Biz "Qara şəhər"i "Ağ şəhər"ə çevirdik. Hesab edirəm ki, bu da dünya miqyasında ən böyük və ən müasir standartlara cavab verən şəhərsalma layihələrindən biridir. Artıq orada çoxmənzilli evlər tikilir, ictimai zonalar yaradılır. "Qara şəhər"i ləğv edib onun yerində ekoloji təmiz "Ağ şəhər" yaratmaq bizim növbəti tarixi xidmətimizdir..."

### "Ağ şəhər"in ağ imarətləri

Bu gün "Ağ şəhər" kimi, Bakının inkişafını, müasirliyini, ekoloji baxımdan nümunəviliyini təsdiqləyən həmin məkana baxmaqdan nə göz doyur, nə də könül ayrılır.

"Qara şəhər"in yaradılmasına ötəri nəzər salmaqla "Ağ şəhər"in tarixi keçmişini öyrənmiş olarıq. Belə ki, yerli neftayırma sənayesinin uğurları ilə bağlı Bakı yaxınlığında yaranan kiçik bir yaşayış məntəqəsində əsasən neft zavodları yerləşirdi. Hələ 1873-cü ildə bir çox zavodların Bakıdan kənardakı boş ərazilərə çıxarılması haqqında sərəncam verilmişdi. Həmin vaxtlar burada yüzə yaxın zavod, ticarət müəssisələri və yaşayış yerləri tikilmişdi. Tezliklə zavodlardan çıxan tüstü və his həmin ərazini qaraya boyamışdı. Elə ona görə də ərazini haqlı olaraq qeyri-rəsmi olsa da, "Qara şəhər" adlandırmışdılar.

1876-cı ildə Keşlədəki otlaq sahələrində və yerli əhalinin bağ və bostan sahələrinin yerində yeni sənaye rayonu salındı. 1880-ci ildə yeni sənaye rayonunda 120-yədək müəssisə fəaliyyət göstərirdi. 1905-ci ildə demək olar ki, Bakının bütün iri neft sənayesi obyektləri burada yerləşdirilmişdi. Ona görə də buradakı tikililərin hamısını tüstü-his basdığından hər tərəf qapqara görünürdü. Elə buna görə də 1880-90-cı illərdən bu ərazi artıq "Qara şəhər" kimi tanınırdı.

...Bu da gözəlliyi ilə göz oxşayan "Ağ şəhər" - Azərbaycan Prezidenti İlham Əliyevin "2006-2010-cu illərdə Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair kompleks tədbirlər planının" təsdiq edilməsi barədə fərmanının icrası çərçivəsində və Bakı Şəhər İcra Hakimiyyətinin 11 iyun 2007-ci il tarixli sərəncamına əsasən, ölkəmizdə həyata keçirilən ən böyükmiqyaslı şəhərsalma layihələrindən biri ilə salınıb. Bakı "Ağ şəhər" layihəsinin Baş Planı 621 hektar sahədə yerləşən, şəhər mərkəzinin şərq hissəsinin ("Qara şəhər"in) bərpa və inkişafı, həmçinin paytaxtın yeni müasir mədəniyyət mərkəzinə çevrilməsini, daha dəqiq desək, 10 universal şəhər tipli rayonun yaradılmasını nəzərdə tutur.

### Harmoniya və rahatlıq məkanı - "Ağ şəhər"

"Ağ şəhər" layihəsinin baş məsləhətçisi mühəndis və memarlıq işlərinin layihələndirilməsi üzrə dünyanın tanınmış şirkəti olan Böyük Britaniyanın "Atkins" şirkətidir. Layihə üzərində işə azərbaycanlı mütəxəssislərlə yanaşı, əfsanəvi Norman Foster tərəfindən əsası qoyulmuş məşhur "Fosters+Partners" memarlıq şirkəti və kommersiya məkanlarının təşkilində böyük təcrübəyə malik, ABŞ-ın tanınmış "F+A Architects" arxitektura bürosu cəlb edilib.

Bu layihənin reallaşdırılması ilə "Qara şəhər"in sənaye siması keçmişdə qalıb. "Ağ şəhər" adlı harmoniya və rahatlıq məkanı öz təkrarolunmaz cizgiləri ilə regionda lider olan Bakının yeni müasir mərkəzinə çevrilməkdədir.

2011-ci ilin 24 dekabrında "Ağ şəhər" layihəsinin təməlqoyma mərasimi keçirilib. Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva təməlqoyma tədbirində iştirak ediblər. 24 dekabr 2016-cı il tarixində Bakı "Ağ şəhər"in təməlinin qoyulmasının 5-ci ildönümü ilk yaşayış kvartalı olan "Yaşıl ada"nın açılışı ilə qeyd edilib. Həmin mərasimdə həmçinin yeni Fəvvarələr Meydanı kvartalında parkın təməli qoyulub.

Bakı "Ağ şəhər"in ilk landmark binası və giriş qapısı sayılan Bakı "Ağ şəhər" Ofis Binası A səviyyəli biznes mərkəzidir. Bu binanın 24 dekabr 2014-cü il tarixində açılışı olub...







Bir sözlə, qədim və ulu yaşayış məskənlərindən biri kimi tanınmış neft Bakısının siması son illər görünməmiş dərəcədə dəyişilməkdə, müasirləşməkdə, yeniləşməkdədir. Bu isə paytaxtın yalnız simasının dəyişdirilməsi deyil, eyni zamanda ölkənin dinamik inkişafı baxımından da təkzibolunmaz faktorlardandır.

***Məhəmməd NƏRİMANOĞLU, Ağaəli MƏMMƏDOV (foto), "Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Azərbaycan MDB-də sosial rifah göstəricilərinə görə də öndədir

“İnsan kapitalı texnoloji inkişafın sürətləndiyi bir dövrdə həm innovativ dünyanın, həm də iqtisadiyyatın əsas təkanverici qüvvəsi hesab oluna bilər. Sosial rifah içində yaşayan, tərəqqi edən və savadlanan əhali hər bir ölkənin inkişafı üçün əvəzedilməz resursdur. Təsadüfi deyil ki, Prezident İlham Əliyevin siyasi-iqtisadi mövqeyində də sosial məsələlər öndə yer alır. Xüsusilə ötən il aparılan bir sıra kütləvi sosial islahatlar da bunun bariz nümunəsidir”.



Bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin analitiki Məsumə Talıbova adı çəkilən Mərkəzin saytında yerləşdirilən məqaləsində yazıb. Məqalədə qeyd olunur ki, ötən il həyata keçirilən və 3,9 milyard manat maliyyə yükü ilə 4,2 milyon insanı əhatə edən sosial paket vətəndaşların maddi vəziyyətinin yaxşılaşması istiqamətində görülən önəmli tədbirdir. Sosial islahat paketi minimum əməkhaqqının, minimum pensiyanın, eyni zamanda təqaüd və müavinətlərin artırılması, o cümlədən problemli və vaxtı keçmiş kreditlərin geri qaytarılması və restrukturizasiyası kimi önəmli islahat tədbirlərini özündə ehtiva edir.

Müəllif daha sonra yazır ki, keçən il ərzində minimum əməkhaqqı 2 dəfəyə qədər artırılaraq 130 manatdan 250 manata çatdırılıb: “Bu gün Azərbaycan alıcılıq qabiliyyəti pariteti nəzərə alınmaqla minimum əməkhaqqı göstəricisinə görə, MDB ölkələri arasında 2-ci yerdədir. Qonşu ölkələrlə müqayisədə bu göstərici Ermənistandan 2,1, Qazaxıstandan 1,6, Gürcüstan və Rusiyadan isə 1,4 dəfə yüksəkdir. Bu da öz növbəsində Azərbaycan vətəndaşının alıcılıq qabiliyyətinin yüksək olduğunu, minimal əməkhaqqı ilə də digər ölkələrlə müqayisədə sosial rifahının daha yüksək olduğuna işarədir. Əməkhaqlarının artımı isə orta aylıq əməkhaqqının artmasına gətirib çıxarıb. Alıcılıq qabiliyyəti paritetinə əsasən orta aylıq əmək haqqına görə, Azərbaycan MDB-də 2-ci yerdədir. Müqayisə üçün Ermənistanın 9-cu yerdə olduğunu da qeyd etmək olar”.

Əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində həyata keçirilən digər islahat tədbiri, pensiyaların artırılmasından yazan müəllif vurğulayır ki, bu islahat 2019-cu il ərzində əmək pensiyalarının 72 faiz artımı ilə Azərbaycanı MDB məkanında minimal pensiyanın dollarla ifadəsinə görə ilk yerə yüksəltmiş oldu. Bu göstərici Ermənistanın minimal pensiya göstəricisindən 3,7, Gürcüstanın göstəricisindən 2, Rusiyanın göstəricisindən 1,3, Qazaxıstanın minimal pensiya göstəricisindən isə 1,1 dəfə çoxdur. Orta pensiya göstəricisinə görə isə Azərbaycan MDB-də 2-ci yerdədir. Müqayisə üçün bildirək ki, bu göstərici üzrə Ermənistan 10-cudur.

Yeri gəlmişkən, Azərbaycanın sosial müdafiə xərcləri də Ermənistanla müqayisədə 3 dəfədən çoxdur. Bu barədə yazan müəllif qeyd edir ki, Azərbaycanın 2020-ci il dövlət büdcəsində sosial müdafiə xərcləri 3,8 milyard dollar olduğu halda, Ermənistanda həmin rəqəm cəmi 1,1 milyard dollardır.

Məlumdur ki, keçən ilin böyükmiqyaslı digər sosial layihəsi Prezident tərəfindən fiziki şəxslərin problemli kreditləri ilə bağlı məsələnin həll edilməsi olmuşdur. Nəticədə fiziki şəxslərin kredit borclarının devalvasiya ilə bağlı manatla artmış hissəsi dövlət büdcəsinin vəsaiti hesabına ödənilmişdir. Digər ölkələrdə problemli kreditlərin həlli istiqamətində həyata keçirilən müxtəlif modellərlə müqayisədə öz sosial yönümlülüyü ilə seçilən bu layihədən ümumilikdə 800 mindən artıq əhali yararlanmışdır.

Azərbaycanda son illər ardıcıl xarakter alan sosial müdafiə tədbirlərinə toxunan M.Talıbova yazır ki, əhalimizin sayının digər sahələrdə qeydə alınan inkişaf fonunda 1991-ci ildən bugünədək 40 faiz artması ölkədə həm də yaşayış şəraitinin inkişaf etdiyini təsdiqləyir: “Əhalinin artım sürəti ümumi iqtisadi, intellektual və mədəni inkişafdan və modernizasiyadan asılı olaraq dəyişir. Əhali artımı inkişaf etmiş ölkələrdə əsasən miqrasiya göstəricisinə, əksinə, zəif inkişaf etmiş ölkələrdə isə demoqrafik məhsuldarlıq səviyyəsinə görə baş verir. Azərbaycanda isə bu, hər iki istiqamətdə müşahidə olunur. Belə ki, Azərbaycanda demoqrafik məhsuldarlıq beynəlxalq statistika mənbələrinə görə, 1,89 göstəricisi ilə bütün inkişaf etmiş ölkələrdən, eləcə də Rusiya (1,61), Ermənistan (1,64), Gürcüstan (1,76), hətta Çindən (1,6) daha çoxdur”.

Müəllif yazır ki, əhalinin həyat şəraitinin keyfiyyət göstəricilərinə dair statistik məlumatlar da müsbət şərhlər söyləməyə imkan verir: “Azərbaycanda yoxsulluq səviyyəsi son 10 ildə ən aşağı həddə çataraq 4,8 faiz olmaqla MDB ölkələri arasında 2-ci yerdədir. Müqayisə üçün bildirək ki, Ermənistan 23,5 faiz göstərici ilə 8-cidir. Ümumi, o cümlədən gənclər arasında işsizlik səviyyəsi Azərbaycanda müvafiq olaraq 4,8 və 9,1 faiz olmaqla Ermənistanla müqayisədə 4 dəfə azdır”.

M.Talıbova məqaləsinin sonunda yazır: “Statistik göstəricilərdən də göründüyü kimi, Prezident İlham Əliyevin rəhbərliyi ilə sosial sahədə aparılan kompleks islahatlar öncə vətəndaş məmnunluğu, sosial rifahın yaxşılaşması, əhalinin sosial-mədəni inkişafının təmin edilməsi istiqamətində hərtərəfli dəstəyi hədəfləyərək qısa zamanda öz müsbət nəticələrini göstərir. Bu islahatlar əhalinin gəlirlərinin, yığımların, investisiya yatırımlarının artmasına, iqtisadi aktivliyin yüksəlməsinə gətirib çıxarır ki, bunun da öz növbəsində iqtisadiyyatın digər sahələrinə müsbət töhfə verəcəyi şübhəsizdir”.

***“Azərbaycan”***

## Dekabrda ölkəmizdə 288 minik avtomobili istehsal edilib

*Ötən ilin dekabrında ölkədə 288 minik avtomobili və 4 traktor istehsal olunub.*

*Dövlət Statistika Komitəsinin yaydığı məlumata görə, il ərzində maşın və avadanlıqların, digər nəqliyyat vasitələrinin, avtomobil, qoşqu və yarımqoşquların istehsalı sahələrində 16 milyon manatlıq məhsul istehsal edilib.*



## Ötən il Azərbaycanda 6,1 milyon ton neft emal olunub

2019-cu il ərzində ölkədə 6 milyon 192 min ton neft emal edilib. Neftin emalı əvvəlki illə müqayisədə 104 min ton çox olub. AZƏRTAC xəbər verir ki, bu barədə Energetika Nazirliyinin hesabatında deyilir.

Hesabatda həmçinin bildirilir ki, hazırda SOCAR-ın Heydər Əliyev adına Neft Emalı Zavodunun (NEZ) modernləşdirilməsi işləri görülür. Layihə çərçivəsində həyata keçirilən işlər nəticəsində 2021-2022-ci illərdə Azərbaycanda “Avro-5” standartına cavab verən dizel və benzin yanacaqlarının istehsal olunması nəzərdə tutulur. 2024-2025-ci illərdə isə istehsalat həcminin 7,5 milyon tonadək artırılması istiqamətində aparılan işlərin başa çatdırılması planlaşdırılır.

Qeyd edək ki, Heydər Əliyev adına NEZ regionun yeganə neft emalı kompleksidir. Müəssisə Azərbaycanın yanacağa olan tələbatının əsas hissəsini təmin edir. Zavodda 15 adda neft məhsulu, o cümlədən avtomobil benzini, təyyarə yanacağı, dizel yanacağı, mazut, neft koksu və s. istehsal olunur.

## Böyükşor gölündə fotovoltaik sistem quraşdırılır



Böyükşor gölündə günəş qurğularının quraşdırılması 2021-ci ilin martınadək başa çatacaq.

AZƏRTAC-ın bu barədə yaydığı məlumata görə, “Üzən günəş panelləri sisteminin inkişafına dair biliklərin mübadiləsi və texniki yardım dəstəyi” pilot layihəsi çərçivəsində Böyükşor gölündə 100 kilovata qədər gücə malik olacaq fotovoltaik sistemin quraşdırılması, habelə günəş qurğularının quraşdırılmasında özəl sektorun iştirakının təşviqi məqsədilə biznes modellərinin formalaşdırılması, təlimlər vasitəsilə milli potensialın gücləndirilməsi nəzərdə tutulur. Layihənin icrasının 2021-ci ilin mart ayına qədər başa çatdırılması planlaşdırılır.

## İtaliyanın iş adamları Azərbaycana gələcək



Martın 8-11-də İtaliyanın Venesiya regionunun iş adamları Azərbaycana səfər edəcəklər.

AZƏRTAC-ın yaydığı məlumata əsasən, Venesiyanın Xarici Ticarət Palatası və Bakıda fəaliyyət göstərən İtaliya Ticarət Komissiyasının birgə təşkilatçılığı ilə keçiriləcək biznes görüşlər çərçivəsində hər iki ölkənin investisiya perspektivləri müzakirə olunacaq, maraqlı tərəflərin birbaşa görüşləri keçiriləcək. Habelə iştirak edən şirkətlər üçün məhsul, bazar əlaqələrinin yoxlanılması aparılacaq, təklif olunan malların yerli bazara uyğunluğu qiymətləndiriləcək.

## Qeyri-formal məşğulluğa qarşı maarifləndirmə işləri davam edir

“İşçi işəgötürənlə əmək müqaviləsi bağlamadan, qeyri-formal şəkildə bu və ya digər fəaliyyəti yerinə yetirməklə özünü əmək və sosial təminat hüquqlarından məhrum etmiş olur. Qeyri-formal məşğulluq işəgötürənlərin də iqtisadi mənafelərinə, müəssisədə əmək məhsuldarlığına, keyfiyyətli istehsal və xidmət prosesinə ciddi zərər vurur. Ona görə də qeyri-formal məşğulluq hallarının aradan qaldırılmasında, qeyri-formal məşğulluğun leqallaşdırılmasında işçilər və işəgötürənlər eyni dərəcədə fəal olmalıdırlar”.

Bu fikirlər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin Şabran rayonunda keçirdiyi əmək qanunvericliyi və onun tətbiqi ilə bağlı məlumatlandırma məqsədi daşıyan tədbirdə diqqətə çatdırılıb.

İşçi və işəgötürənlərin iştirakı ilə keçirilən tədbirdə qeyri-formal məşğulluğun mənfi nəticələri, əməyin leqallaşdırılmasının əhəmiyyəti vurğulanıb, 2019-cu ildə ölkədə qeyri-formal məşğulluğun qarşısının alınması istiqamətində həyata keçirilən tədbirlər, əldə edilmiş müsbət nəticələr qeyd edilib. Həmçinin istirahət vaxtı və işçilərin məzuniyyət hüquqları, məzuniyyət hüququnun təmin edilməsi ilə bağlı qanunvericilikdən irəli gələn prinsiplər barədə iştirakçılar məlumatlandırılıb, onlara əmək qanunvericiliyində nəzərdə tutulmuş istirahət vaxtı və istirahət günləri, işçilərin məzuniyyət hüquqları, məzuniyyətin növləri barədə məlumatlar verilib. Əmək məzuniyyəti və onun verildiyi iş ili, əmək məzuniyyətlərinin, əmək şəraitinə və əmək funksiyasının xüsusiyyətlərinə, əmək stajına görə əlavə məzuniyyətlərin müddətlərindən və s. bəhs olunub.

## Bakı limanında yükaşırmanın həcmi 7,2 faiz artıb

Ötən il “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC-də (Bakı limanı) yükaşırmanın həcmi 2018-ci ilə nisbətən 7,2 faiz artaraq 4 milyon 61,6 min ton olub.

QSC-dən verilən məlumata görə, ümumi yükaşırmanın əsas hissəsi - 84,8 faizi (3 milyon 444,2 min tonu) tranzit yüklərin payına düşüb.

## «Cənub qaz dəhlizi»nin sonuncu seqmentinin çəkilişi başa çatır

### Prezident İlham ƏLİYEV: “Bu il TAP-ın istismara verilməsini də nəzərdə tutulmuş vaxtda qeyd edəcəyik”

*Əvvəli 1-ci səh.*

“Cənub qaz dəhlizi”nin üç seqmenti - “Şahdəniz-2”, CQBK-nın genişləndirilməsi və TANAP layihələri artıq fəaliyyətdədir. İndi növbə TAP-ındır.

Əslində bu dörd seqmentin hamısı bir-birinə sıx bağlıdır. TANAP-ın Avropa ilə birləşən hissəsinin açılış mərasimində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bu barədə demişdir: “TANAP Azərbaycan, Gürcüstan və Türkiyə marşrutundan Avropaya - TAP xəttinə birləşib və təbii ki, oradan davam edərək Bolqarıstan, Yunanıstan, Makedoniya, Albaniya, Serbiya, Bosniya və Herseqovina marşrutu üzərindəki ölkələr də ondan faydalanır. Təbii ki, bütün bu addımları atarkən bunun bir regional layihə, bir sülh layihəsi olduğunu da xüsusilə vurğulamaq lazımdır”.



Hazırda TAP-ın tikinti meydançalarında işlər başa çatmaqdadır. Bu da kəmərin Azərbaycan qazını Avropaya nəzərdə tutulduğu vaxtda, yəni bu il çatdıracağına zəmanət verir.

“Şahdəniz” konsorsiumu qazı Avropaya ixrac etmək üçün iddialı olan dörd kəmər sırasından TAP-ı 2013-cü ilin ortalarında seçib. Seçim prosesində TAP səkkiz şərtə görə üstünlük qazanıb. Bunlardan birincisi kəmərin kommersiya səmərəliliyidir. İkinci, üçüncü və dördüncü əsas şərtlər layihənin icra mümkünlüyü, həmçinin maliyyə baxımından icra mümkünlüyü və texniki layihələndirmədir. Daha bir vacib məsələ kimi tənzimləmə və şəffaflıq götürülüb. Altıncı amil kəmərin təhlükəsizliyi və səmərəli istismarının mümkünlüyüdür. TAP eləcə də digər kəmərlərdən genişləndirmə imkanlarının olduğuna görə fərqlənir. Nəhayət, qiymətləndirmə zamanı ictimai maraqlarla bağlı amillər də nəzərə alınıb.

Kəmərin təməli 2016-cı il mayın 17-də Yunanıstanın Saloniki şəhərində qoyulub. Həmin vaxtdan da tikinti işlərinə başlanıb

TAP Avropanın üç ölkəsinin ərazisindən - Yunanıstan, Albaniya və İtaliyadan keçir. Boru xəttinin marşrutu Yunanıstanın Türkiyə ilə sərhəddə yerləşən Kipoi ərazisindən başlanır. Bu, uzunluğu təxminən 878 kilometr olan kəmərdir. Onun 550 kilometri Yunanıstanın, 210 kilometri Albaniyanın ərazisindən, 105 kilometri Adriatik dənizinin altından keçir və sonuncu - bir neçə kilometrlik hissəsi İtaliya torpağında quru sahəyə çıxır. Burada kəmər “Snam Rete Gas” şirkətinin istismar etdiyi qaz nəqliyyatı şəbəkəsinə birləşdiriləcək.

TAP layihəsində BP (20 faiz), SOCAR (20 faiz), “Snam S.p.A.” (20 faiz), “Fluxys” (19 faiz), “Enagas” (16 faiz) və “Axpo” (5 faiz) şirkətləri tərəfdaşlıq edirlər.

Kəmərin ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olacaq və bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulur. Layihənin kapital xərcləri 4,5 milyard avrodur.

TAP-ın ən aşağı hissəsi dəniz səviyyəsindən təxminən 820 metr dərinlikdə, ən yüksək hissəsi Albaniya dağlarında 1800 metr hündürlükdən keçir. Kəmərin diametri əsasən 48 düymdür, yalnız dənizin altından keçən hissəsində 37 düymlük borular düzülüb.

Marşrut qısa olmadığından və xəttin ayrı-ayrı hissələri fərqli coğrafi məkanlardan keçdiyindən inşaat işləri də asan olmayıb. Üstəlik, kəmərin bir sıra yerüstü obyektləri, məsələn ölçmə və kompressor stansiyaları var. Bununla belə, inşaatçılar indiyədək bütün işlərin öhdəsindən layiqincə gəliblər.

Layihənin İtaliyada başa çatmasına baxmayaraq, təbii qazın gələcəkdə ara keçid boru kəmərləri vasitəsilə İsveçrə, Avstriya, Fransa, Almaniya, Belçika, hətta İngiltərəyə ötürüləcəyinin mümkün olacağı istisna edilmir. TAP-ın əhəmiyyəti həm də ondadır ki, Yunanıstan-Bolqarıstan İnterkonnektoru və İon-Adriatik qaz kəmərinin təchizatını asanlaşdıracaq.

***Flora SADIQLI,***
***“Azərbaycan”***

## “Standard and Poor's” Azərbaycanın kredit reytinqini təsdiqləyib

“Standard and Poor's” beynəlxalq reytinq agentliyi Azərbaycanın kredit reytinqini təsdiqləyib.




AZƏRTAC agentliyə istinadla xəbər verir ki, “Standard and Poor's” ölkəmizin xarici və yerli valyutada uzunmüddətli kredit reytinqini “BB+/B” səviyyəsində təsdiqləyib, reytinq üzrə proqnozu isə “sabit” saxlayıb.

## “Auditoriyadan tarlaya” layihəsi reallaşdırılacaq

Azərbaycan Dövlət Aqrar Universitində (ADAU) Azərbaycan Gənclər Fondu və ADAU-nun birgə layihəsi olan “Auditoriyadan tarlaya” layihəsinin təqdimat mərasimi keçirilib.

Tədbirdə çıxış edən ADAU-nun Tələbə Gənclər Təşkilatının sədri Orxan Muradzadə bildirib ki, layihənin keçirilməsində məqsəd gənclərin ictimai fəallığının artırılmasından ibarətdir. “Layihənin ünvanlandığı gənclərin ölkəmizdə dövlətin aqrar sahəyə ayırdığı diqqətlə bağlı məlumatlandırılması, bu sahə üzrə kadr hazırlığının önəminin əyani yollarla çatdırılmasıdır. Eyni zamanda aqrar sahədə problemlərin həllində gənclərin şəbəkələşməsinin zəruriliyini təmin etmək, onların bu problemlərin həllində təşəbbüslərinin artırılmasına nail olmaq və bu kimi məsələlərin həllində gənclərin rolunu artırmaq əsas hədəflərdəndir” deyə o, bildirib.

Məlumat verilib ki, layihə çərçivəsində “Auditoriya və praktika”, “Aqrar sahəyə marağı artırmaq üçün nə etmək lazımdır?”, “Fermer yerli aqronoma inanırmı?” adlı maarifləndirici təlimlər keçiriləcək, layihə iştirakçılarının ADAU-nun Tədris-təcrübə təsərrüfatına ekskursiyası təşkil olunacaq. Layihənin sonunda iştirakçıların sertifikatlarla mükafatlandırılması nəzərdə tutulur.

## Fevralın 1-dən köhnə smartfonlarda “WhatsApp” işləməyəcək




“WhatsApp” messencerinin tərtibatçıları köhnə mobil qurğuların dəstəyinin dayandırılması barədə qərar qəbul ediblər.

AZƏRTAC xarici KİV-ə istinadla xəbər verir ki, bu il fevralın 1-dən “WhatsApp” “Android 2.3.7” və “iOS 8” köhnə mobil əməliyyat sistemlərinin idarəetməsi ilə işləyən smartfon və planşetləri dəstəkləməyəcək. Messenceri “Android 4.0.3” və ya “iOS 9” versiyalarda problemsiz istifadə etmək mümkün olacaq. “WhatsApp” messenceri “KaiOS 2.5.1” sistemli aparatlarda da işləyəcək.

# Azərbaycanlılarsız qalan Azərbaycan torpaqları...

## Onlar indi Ermənistan adlanan tarixi torpaqlarından qovulublar



Qədim və böyük Azərbaycan torpaqlarına göz dikmiş ermənilər özlərinə yoxdan bir dövlət yaratmaq üçün hər vasitəyə əl atıblar. Məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasəti xalqımıza ağır məhrumiyyətlər, dəhşətli faciələr yaşadıb.





### Erməni xülyaları...

Ermənilər tarixi saxtalaşdırmaq üçün hər cür rəzilliyi, riyakarlığı özlərinə rəva görüblər. Heç zaman olmamış və olmayacaq bir dövlətin - "böyük Ermənistan"ın xülyalarına qapılaraq amansız cinayətlər törədib, nahaq qanlar axıdıblar. Niyyətlərinə çatmaq üçün həm çarizmin, həm də bolşevizmin müstəmləkəçilik siyasətindən böyük məharətlə istifadə ediblər. Bunun üçün cilddən-cildə giriblər, məqamı gələndə yazıq, aciz, yaltaq, yeri gələndə qəddar, amansız olublar. Bəzən fürsət gözləyib, illərlə əsl simalarını gizlədə biliblər. Azərbaycan xalqının soykökünə söykənən adət-ənənələr, mənəvi dəyərlər - qonaqpərvərlik, humanistlik də ermənilərin işinə yarayıb. Məkrli planlarını həyata keçirmək üçün əvvəlcə qılığa girib sığınacaq tapdıqları Azərbaycan ərazilərinə sahiblənmək iddiasını irəli sürüblər.

Baş verən siyasi-ictimai çaxnaşmalardan istifadə edən ermənilər kütləvi qətllər, qırğınlar törədiblər. Elə təkcə ötən əsrdə xalqımıza qarşı dönə-dönə genişmiqyaslı hücumlar edib, soyqırımı aksiyaları həyata keçiriblər.

XX əsrin əvvəllərində çar Rusiyasının ərazilərində getdikcə güclənən siyasi iğtişaşlar, tətillər inqilabla nəticələndi. Çarizm hakimiyyətini qorumaq üçün milli münaqişəni alovlandırırdı. 1905-1907-ci illərdə bundan istifadə edib çar hökumətindən hər cür yardım alan, silahlandırılan erməni dəstələri azərbaycanlılara qarşı soyqırımı törətdi.

1917-ci ildə Rusiyada bolşeviklərin ələ keçirdikləri hökumət də eyni siyasəti yürütdü. Yenə erməni daşnakları silah-sursatla təmin edildilər. Tarixi mənbələrə əsasən, 1918-ci ilin martınadək İrəvan quberniyasında 199 azərbaycanlının yaşadığı kənd dağıdılıb. Həmin ərazidə yaşayan 135 min azərbaycanlının böyük əksəriyyətini ermənilər qətlə yetiriblər. Sağ qalanlar isə Osmanlı ordusunun nəzarət etdiyi yerlərə qaçmaq məcburiyyətində qalıblar.

1918-ci il martın 30-da səhər daşnak-bolşevik birləşmələri Bakı şəhərini gəmilərdən atəşə tutublar. Silahlanmış ermənilər azərbaycanlıların evlərinə hücum çəkib, qətllər, qarətlər törədiblər. Şamaxı qəzasının 53 müsəlman kəndində martın 30-dan aprelin 2-dək ermənilər tərəfindən 8027 azərbaycanlı şəhid edilib. Quba qəzasında 162 kənd darmadağın edilib, 16 mindən çox soydaşımız öldürülüb. Ermənilər Dağlıq Qarabağda 150 azərbaycanlı kəndini tamamilə dağıdıblar. Lənkəranda, Muğanda minlərlə yurddaşımız qətlə yetirilib.

### Dəyişən imperiyanın dəyişməyən siyasəti

1920-ci ilin aprelində Azərbaycanın dövlət müstəqilliyinə qəsd edən bolşevik ordusu burada sovet hökumətinin qələbəsini təmin edib.

Azərbaycanın keçmiş İrəvan xanlığı - İrəvan quberniyası ərazisinin əksər hissəsini, Zəngəzur qəzasını, Qazax qəzasının Dilican dərəsini, Gürcüstanın Lori-Pəmbək, Qars vilayətinin Ağababa bölgəsini birləşdirərək Ermənistan adlı respublika qurub. Hiylə, məkr, tamah bununla da bitməyib. XX əsrdə Ermənistanın Azərbaycanın qərbində həyata keçirdiyi separatizmin faciələri xalqımıza ağır zərbələr vurub. "Daşnaksütyun" partiyasının dəstəyi, sovet təbliğatı nəticəsində yoxdan var edilən respublikaya erməni axını başlayıb. Dünyaya yayılmış ermənilərin çoxu burada məskunlaşmağı fürsət biliblər. Amma azərbaycanlıları doğma yurdlarından qovmaq üçün ermənilər hələ çox günahsız insanlara işgəncələr verəcək, qan tökəcəkdilər...

İkinci Dünya müharibəsindən sonra İ.V.Stalinin "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 1947-ci il 23 dekabr qərarı ermənilərə azərbaycanlıları qovmaq niyyətini həyata keçirmələrinə şərait yaradıb. SSRİ Nazirlər Sovetinin 1948-ci il 10 mart tarixli "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" yeni qərarı ilə bu prosesin həyata keçirilməsini sürətləndirmək üçün tədbirlər planı hazırlanıb. Qərarda da bildirilib ki, bu, "SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli qərarına əlavədir". Əslində sənəddə əksini tapan azərbaycanlı əhalinin "könüllülük prinsipləri əsasında" köçürülməsi saxtakarlıq idi. Qərar deportasiya aktı idi və həyata keçirilməsinə amansızlıqla başlanıldı.

Qərara görə, üç il ərzində 100 min - 1948-ci ildə 10 min, 1949-cu ildə 40 min və 1950-ci ildə 50 min azərbaycanlı köçürülməli idi. Əslində Azərbaycanın pambıqçılıq rayonlarında işçi qüvvəsinin çatışmaması kimi fikirlər uydurma idi. 1948-1953-cü illərdə azərbaycanlıların deportasiyasının əsas səbəblərindən biri xaricdə yaşayan və məkrli niyyətləri ucbatından hər yerdə gözdən düşmüş erməniləri gətirmək idi. Qərarın on birinci maddəsində bildirilib ki, Ermənistan SSR Nazirlər Sovetinə azərbaycanlıların köçürülməsi ilə bağlı onların boşaltdıqları tikililərdən, yaşayış evlərindən xarici ölkələrdən Ermənistan SSR ərazisinə köçürülən erməniləri yerləşdirmək üçün istifadə edilməsinə icazə verilsin.

Köçürülmə kütləvi şəkildə, qəddarlıq və zorakılıqla aparılıb. 1948-1953-cü illərdə 150 mindən çox azərbaycanlı Ermənistan ərazisindəki doğma yurdundan sürgün olunub. Onların Kür-Araz ovalığına köçürülmələri faciənin miqyasını genişləndirib. Deportasiya olunanlar əsasən Azərbaycanın Saatlı, Mirbəşir (Tərtər), Göyçay, İmişli, Əli-Bayramlı, Zərdab, Salyan, Kürdəmir, Xaldan, Sabirabad, Jdanov (indiki Beyləqan), Yevlax, Ucar, Bərdə rayonlarında yerləşdiriliblər. Dağlıq və dağətəyi ərazilərdə yaşayanlar köçürüldükləri Kür-Araz ovalığının istilərinə dözə bilməyiblər. Xüsusən qocalar və uşaqlar hava və ağır məişət şəraiti ucbatından xəstəliklərə yoluxublar, kütləvi ölüm halları baş verib. Bu xəbərləri eşidən köçürülməmiş əhali çarəsiz qalıb. Onlar Azərbaycanın dağlıq rayonlarına, xüsusən Dağlıq Qarabağa köçmək arzularını bildirsələr də, buna imkan verilməyib.

